

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 avqust 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

BDU Türkiyədə keçirilən "TEKNOFEST 2022"də təmsil olunub

➔Səh.5

BDU və Ankara Universiteti biotexnologiyanın qida təhlükəsizliyi və tibb sahəsində tətbiqi üzrə birgə fəaliyyət göstərəcək

➔Səh.13

Biologiya fakültəsinin əməkdaşları Qızılağac və Hirkan Milli Parkında tədqiqat aparıb

➔Səh.13

BDU-nun əməkdaşlarının təqdim etdiyi layihə Erasmus+Jean Monnet proqramı üzrə müsabiqənin qalibi olub

➔Səh.14

Azərbaycanda ilk dəfə urdu dilini öyrənənlər üçün rəngli və şəkilli formatda dərslik nəşr olunub

➔Səh.15

BDU Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının təhsil və karyera sərgisində

➔Səh.15



BDU ilə Ankara Universiteti arasında akademik əməkdaşlıq protokolu imzalanıb

➔Səh.2



Qazaxıstanın Atırau Neft və Qaz Universitetinin rektoru ilə görüş

➔Səh.3



BDU-nun rektoru Gürcüstan səfiri ilə görüşüb

➔Səh.3



BDU-da COIA-2022 beynəlxalq elmi konfransı öz işinə başlayıb

➔Səh.4



BDU Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının təhsil və karyera sərgisində

➔Səh.15



# BDU ilə Ankara Universiteti arasında akademik əməkdaşlıq protokolu imzalanıb

***Avqustun 16-da Türkiyənin paytaxtı Ankara şəhərində Ankara Universiteti ilə Bakı Dövlət Universiteti arasında Akademik əməkdaşlıq protokolu imzalanıb. Protokolu BDU-nun rektoru Elçin Babayev və Ankara Universitetinin rektoru Necdet Ünüvar imzalayıb.***

İmzalanma mərasimində Ankara Universitetinin rektoru Necdet Ünüvar protokolun əhəmiyyətindən bəhs edib, Azərbaycanın ən qədim və böyük universiteti olan BDU ilə əməkdaşlığın gələcəkdə daha yüksək formada inkişaf etdiriləcəyinə əminliyini bildirib.

BDU-nun rektoru Elçin Babayev hər bir sahədə Azərbaycan-Türkiyə münasibətlərinin qardaşlıq səviyyəsində olduğunu bildirərək, BDU-nun qardaş ölkənin ali təhsil müəssisələri ilə elm və təhsil sahəsində sıx əməkdaşlıq etdiyini qeyd edib. Türkiyənin ən qocaman universitetlərindən olan Ankara Universiteti ilə əməkdaşlığın hər iki universitet üçün səmərəli olacağına əminliyini ifadə edərək, gələcəkdə birgə layihələrin həyata keçirilməsi, akademik və elmi əməkdaşlığın perspektivlərindən bəhs edib.

İmzalanan protokolla universitetlər akademik və mədəniyyət sahələrində əməkdaşlıq etmək barədə razılığa gəliblər. Tərəflər təhsil və elm sahələrində birgə tədqiqatlar aparacaq, akademik heyətin və tələbələrin mübadiləsini həyata keçirəcək, qarşılıqlı maraq doğuran sahələrdə ortaq elmi konfranslar, seminar və mühazirələr və s. təşkil edəcəklər. Protokolda həmçinin təhsil, təlim və tədqiqat məqsədləri üçün təcrübə mübadiləsinin aparılması, müxtəlif elmi ədəbiyyatın, dövri və digər nəşrlərin mübadiləsinin həyata keçirilməsi də nəzərdə tutulur.

Qeyd edək ki, Ankara Universiteti əsası 1946-cı ildə qoyulub. Universitetin 19 fakültəsində 70 mindən çox tələbə təhsil alır. Tələbələrin təhsili ilə 3700 nəfərdən artıq akademik heyət məşğul olur.



# Akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş Beynəlxalq konfrans keçiriləcək

*2022-ci ilin 29-30 sent-yabr tarixlərində Bakı Dövlət Universitetində akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr olunmuş "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda Beynəlxalq elmi konfrans keçiriləcək.*

Konfransın təşkilində əsas məqsəd müasir kimyanın fundamental və tətbiqi sahələri üzrə dünyanın müxtəlif universitet və elmi-tədqiqat institutlarında fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, əldə edilmiş ən mühüm nəticələri müzakirə etmək, yeni prioritet istiqamətləri müəyyənləşdirmək, bu sahədə elmi nailiyyətləri və təcrübələri paylaşmaq, habelə, əldə edilən nəticələrin təcrübədə tətbiqinin



forma, metod və yollarını tapmaq və gənclərin elmə olan marağını artırmaqdır.

Türkiyə, Pakistan, Almaniya, Ukrayna, Böyük Britaniya, Belçika, Portuqaliya, Litva, Çin, Hindistan, Vyetnam, Polşa, Özbəkistan, Rusiya, Qazaxıstan, Gürcüstan kimi xarici ölkələrdən, ölkəmizin bir çox ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarından olan tədqiqatçıların iştirakı ilə keçiriləcək konfransda analitik kimya, ekoloji kimya və ətraf mühitin mühafizəsi, kimyanın tədrisi metodikası, perspektivli materialların sintezi, fiziki kimya və qeyri-üzvi materialşünaslıq kimi sahələr üzrə məruzələr dinləniləcək, müzakirələr aparılacaq.

Konfransda müxtəlif ölkələrdən olan dəvətli məruzəçilərin bu sahənin problemləri və alınmış ən son nəticələr üzrə məruzələri dinləniləcək.

# BDU-nun rektoru Ankara Universitetinin Texnoparkında elmi-tədqiqat işlərilə tanış olub

*Avqustun 12-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin Ankara Universitetinin Gölbaşıda yerləşən Texnoparkında olub. Nümayəndə heyəti texnoparkda yerləşən şirkətləri ziyarət edib, onların nümayəndələri ilə danışıqlar aparıb, həyata keçirilən layihə və araşdırmalarla tanış olub.*

Elmi tədqiqat əlaqələrinin genişləndirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə gerçəkləşən görüş çərçivəsində Türkiyə universitetlərinin elmi-tədqiqatlarının istehsalata tətbiqi istiqamətində əldə etdiyi nailiyyətlər öyrənilib. Ankara Universitetinin bu sahədə əldə etdiyi təcrübədən BDU-da bəhrələnmək, BDU-nun Texnoparkının qurulmasında mövcud təcrübədən yararlanmaq üçün şirkətlərin Universitet ilə birgə fəaliyyəti müzakirə olunub. Texnopark rəhbərliyi araşdırma mərkəzləri, icra olunan layihələr, icraçı şirkətlər haqqında geniş məlumat verib, müxtəlif innovativ layihələr nümayiş etdirilib. Tədqiqatlar ətrafında müzakirə aparılıb, əməkdaşlıq perspektivləri müzakirə olunub.



# BDU ilə Türkiyənin Biləcik Şeyx Ədəbalı Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

*Elçin Babayev BDU ilə Türkiyənin ali məktəbləri arasında əlaqələrin çox genişləndiyini, son günlər qardaş ölkənin bir neçə universiteti ilə əməkdaşlıq müqavilələrinin imzalandığını və müxtəlif istiqamətlərdə ortaq layihələr həyata keçiriləcəyini bildirib.*

*Avqustun 28-də Bakı Dövlət Universiteti ilə Türkiyənin Biləcik Şeyx Ədəbalı Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.*

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Biləcik Şeyx Ədəbalı Universitetinin rektoru Şükrü Beydemir imzalayıb.

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qonağa Azərbaycanın ən böyük və ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti haqqında məlumat verib. Qeyd edib ki, 24 mindən artıq tələbəyə və 1500-dən çox professor-müəllim heyətinə malik Universitetdə 16 fakültə, Qazax filialı, bir kollec, bir lisey, iki elmi-tədqiqat institutu fəaliyyət göstərir. Son illər həyata keçirilən islahatlar nəticəsində BDU-nun Hirş indeksi 52-yə çatıb. Hazırda "Web of Science" bazasına ölkə üzrə daxil edilən məqalələrin 25, ali məktəblər arasında isə 40 faizi BDU-nun alimlərinə məxsusdur. Rektor qonağa BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin fəaliyyəti, burada həyata keçirilən




layihə və tədqiqatlar barədə də məlumat verib.

Elçin Babayev BDU ilə Türkiyənin ali məktəbləri arasında əlaqələrin çox genişləndiyini, son günlər qardaş ölkənin bir neçə universiteti ilə əməkdaşlıq müqavilələrinin imzalandığını və müxtəlif istiqamətlərdə ortaq layihələr həyata keçiriləcəyini bildirib. O, Biləcik Şeyx Ədəbalı Universiteti ilə əməkdaşlığın da uğurlu olacağına əminliyini ifadə edib.

Biləcik Şeyx Ədəbalı Universitetinin rektoru Şükrü Beydemir də iki qardaş ölkənin ali məktəbləri arasında əməkdaşlığın çox məhsuldar və faydalı olacağını bildirib. O, təcrübə mübadiləsinin hər iki universitetin inkişafına töhfə verəcəyini qeyd edib.

Memorandum BDU ilə Biləcik Şeyx Ədəbalı Universitetinin akademik struktur bölmələrində (fakültə, institut, kollec, lisey və s.) aparılan təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə birgə fəaliyyəti, konfrans, sərgi, seminar, simpoziumların, qısamüddətli kurs, təlim və qarşılıqlı maraq doğuran sahələrdə digər tədbirlərin təşkili və keçirilməsini, əqli mülkiyyət hüquqları qorunmaqla elmi açıq informasiya və nəşrlərin mübadiləsini, elmi jurnallarda birgə nəşrləri, akademik proqramların, tədris planlarının və sillabusların təkmilləşdirilməsi üzrə fəaliyyəti, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsini, magistratura və doktorantura dərəcələri üzrə birgə rəhbərlik istiqamətində əməkdaşlığı nəzərdə tutur.

# BDU-nun rektoru Gürcüstan səfiri ilə görüşüb

***Avqustun 1-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Gürcüstan Respublikasının Azərbaycandakı səfiri Zurab Pataradze ilə görüşüb.***

Görüşdə çıxış edən rektor Elçin Babayev bildirib ki, Azərbaycan və Gürcüstan arasında bütün sahələrdə, o cümlədən elm və təhsil sahəsində əlaqələr yüksələn xətlə inkişaf edir. Rektor qonağa Azərbaycanın ilk və ən qədim təhsil ocağı olan BDU-nun 103 illik zəngin tarixi, fəaliyyəti, strukturu, burada həyata keçirilən tədris və elm prosesi barədə ətraflı məlumat verib.



Qeyd edib ki, BDU Azərbaycan universitetləri arasında Böyük Britaniyanın Times Higher Education (THE) jurnalı tərəfindən tərtib olunan və dünyanın ən nüfuzlu reytinqlərindən hesab edilən Dünya Universitetləri Reytinqində (THE World University Ranking) yer alan yeganə universitetdir. Rektor vurğulayıb ki, BDU-nun inkişaf strategiyasının əsas prioritetlərindən biri də beynəlxalq elm və təhsil təşkilatları, dünyanın nüfuzlu universitetləri və elm qurumları ilə əlaqələrin genişləndirilməsidir. Dost və qonşu Gürcüstan Respublikasının ali təhsil müəssisələri ilə qarşılıqlı əlaqələrin qurulması, təcrübə mübadiləsinin aparılması, ikili diplom proqramlarının imzalanması bu baxımdan maraq doğurur.

Gürcüstan Respublikasının Azərbaycandakı səfiri Zurab Pataradze qəbula görə minnətdarlığını bildirib, iki dövlət arasında münasibətlərin inkişafında elm və təhsil sahəsində əlaqələrin önəmli rola malik olduğunu vurğulayıb. Səfir işğaldan azad olunan ərazilərdə aparılan geniş quruculuq işləri ilə yaxından tanış olduğunu, Şuşaya səfər etdiyini qeyd edib.

Görüşdə BDU və Gürcüstan universitetləri arasında əlaqələrin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# BDU-nun rektoru İzmir Yüksək Texnologiya İnstitutunda müzakirələr aparıb

***Avqustun 19-da Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti İzmir Yüksək Texnologiya İnstitutunda olub.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev Universitetdə təhsil və tədris prosesi, elmi tədqiqatlar, yeni innovativ layihələr haqqında məlumat verib. Qardaş Türkiyə universitetləri ilə BDU arasında təhsil-elm-innovasiya istiqamətində geniş və faydalı əlaqələrdən bəhs edib. 2022-ci ildə BDU-da İzmir Yüksək Texnologiya İnstitutu ilə imzalanmış əməkdaşlıq müqaviləsinin əhəmiyyətinə diqqət çəkib, əməkdaşlıq çərçivəsində görülən işlərdən söz açıb.

İzmir Yüksək Texnologiya İnstitutunun rektoru Yusuf Baran ikitərəfli əməkdaşlığın genişləndiyini, universitetlər arasında tələbələrin, akademik və inzibati heyətin mübadiləsinin, eyni zamanda birgə elmi-tədqiqat layihələrinin daha da gücləndirilməsinin vacibliyini qeyd edib.

Görüş zamanı universitetlər arasında mövcud akademik və elmi əlaqələrin genişləndirilməsi, təhsil və tədqiqat sahəsində əməkdaşlığın perspektivləri, birgə ikili diplom proqramları müzakirə olunub.

Tərəflər arasında elm, təhsil, mədəniyyət sahələrində müştərək layihələrin icra edilməsi, akademik, elmi və mədəni mübadilə imkanlarının inkişafı, elmi-tədqiqat işlərində əməkdaşlıq, təhsilin bütün səviyyələrində kadrların mübadiləsinin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər sahələrdə müxtəlif tədbirlərin, o cümlədən elmi konfranslar, sərgilər, seminarlar, simpoziumlar və təlimlərin birgə keçirilməsi müzakirə olunub.



Qeyd edək ki, 2022-ci ildə BDU ilə İzmir Yüksək Texnologiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb. 1992-ci ildə əsası qoyulmuş İzmir Yüksək Texnologiya İnstitutu Türkiyənin mühəndislik sahəsində nüfuzlu ali məktəblərindəndir. İnstitutda tədris ingilis dilində aparılır. 6241 tələbə təhsil alır. 18 bakalavr, 27 magistr və 19 doktorantura proqramı üzrə kadr hazırlığı həyata keçirilir.

# Qazaxıstanın Atırau Neft və Qaz Universitetinin rektoru ilə görüş

***Avqustun 2-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Qazaxıstanın Atırau Neft və Qaz Universitetinin rektoru Gülzada Şakulikova ilə görüşüb.***



Görüşdə rektor Elçin Babayev bildirib ki, BDU-da təhsil, elm, sənaye və biznes vəhdətində müxtəlif sahələr üçün yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Bu baxımdan beynəlxalq əməkdaşlığa, dünyanın qabaqcıl universitetləri və elmi müəssisələri ilə əlaqələri inkişaf etdirməyə və onların təcrübəsindən yaralanaraq elm və təhsil sahəsində innovasiyaların tətbiqinə xüsusi önəm verilir.

Rektor türk dövlətlərinin, o cümlədən Qazaxıstanın ali məktəbləri ilə qarşılıqlı əlaqələrin genişlənməsinin xalqlarımız arasında münasibətlərin inkişafına xüsusi töhfə verdiyini vurğulayıb. O, BDU-nun artıq Qazaxıstanın iki universiteti ilə ikili diplom proqramı həyata keçirdiyini, Universitetdə Abay Kunanbayev adına Qazax Mərkəzinin fəaliyyət göstərdiyini bildirib.

Atırau Neft və Qaz Universitetinin rektoru Gülzada Şakulikova isə rəhbərlik etdiyi ali təhsil müəssisəsinin artıq "Tədqiqat universiteti" statusu aldığını qeyd edib. O, Atırau Neft və Qaz Universitetində universitet-sənaye əlaqələrinin geniş olduğunu, müasir dövrün tələblərinə cavab verən bir neçə müasir elmi-tədqiqat laboratoriyasının fəaliyyət göstərdiyini bildirib. BDU ilə kimya, informasiya texnologiyaları, ekologiya və mühəndislik sahələrində əməkdaşlıq edilə biləcəyini vurğulayan Gülzada Şakulikova rektor Elçin Babayevi Atırau Neft və Qaz Universitetinə dəvət edib.

Görüşdə BDU və Atırau Neft və Qaz Universiteti arasında elm və təhsil sahəsində əlaqələrin genişləndirilməsi, tələbə-müəllim mübadiləsinin və ikili diplom proqramının həyata keçirilməsi barədə müzakirələr aparılıb.

# BDU ilə Qazaxıstanın Jetısu Dövlət Universiteti arasında əlaqələr müzakirə olunub

***Avqustun 5-də Qazaxıstanın İlyas Jansuqurov adına Jetısu Dövlət Universitetinin prorektoru Tokseit Dias Esbayuli Bakı Dövlət Universitetinin qonağı olub.***

Görüşdə iştirak edən BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov son illər ölkəmizdə təhsilin və elmin inkişafından, o cümlədən BDU-nun fəaliyyəti və beynəlxalq əlaqələrindən, türkdilli ölkələrin universitetləri ilə əməkdaşlıqdan bəhs edib.

Tokseit Dias Esbayuli ölkələrimiz arasında siyasi, iqtisadi, təhsil, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişaf etdiyini söyləyib. Təmsil etdiyi qurumun fəaliyyəti barədə ətraflı məlumat verərək, görüşün məqsədi sırasında elm, təhsil və innovativ texnologiya sahələrində qarşılıqlı əlaqələrin genişləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Qarşılıqlı müzakirə formatında keçirilən görüşdə BDU ilə Jetısu Dövlət Universiteti arasında elm-təhsil əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Türk dünyası universitetlərinin əməkdaşlığının genişləndirilməsi, perspektivləri müzakirə olunub.

# BDU-da COIA-2022 beynəlxalq elmi konfransı öz işinə başlayıb

***Ənənəvi olaraq təşkil olunan və üç gün davam edən tədbir idarəetmə və optimallaşdırma sahəsində dünyanın müxtəlif ölkələrindən olan tədqiqatçıların elmi nəticələri müzakirə etmələri, fikir mübadiləsi aparmaları üçün faydalı platforma rolunu oynayır.***

*Avqustun 24-də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi, Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə "Sənaye Tətbiqli İdarəetmə və Optimallaşdırma" mövzusunda 8-ci beynəlxalq elmi konfrans (COIA-2022) öz işinə başlayıb.*



COIA konfranslar silsiləsi 2005-ci ildə Azərbaycanda start götürüb; 2005, 2008, 2015, 2018 və 2020-ci illərdə Bakıda, 2011-ci ildə Türkiyədə - Bilkənt Universitetində, 2013-cü ildə isə Bolqarıstanda - Sofiya Texniki Universitetində keçirilib. Beynəlxalq tədbir Bakıda 6-cı dəfədir təşkil olunub.

"Hilton" oteldə keçirilən konfransın açılış mərasimində Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rövşən Rüstəmov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz siyasətində elm, təhsil, ixtisaslı kadrların hazırlığı istiqamətini mühüm hesab edir. Bunun nəticəsidir ki, Azərbaycanda ölkənin davamlı iqtisadi-siyasi inkişafı üçün ixracyönümlü, rəqabətədavamlı, elmtutumlu məhsulların istehsalı əsas məsələlərdəndir. Nazir müavini əlavə edib ki, "Sənaye Tətbiqli İdarəetmə və Optimallaşdırma" beynəlxalq konfrans uzun illərdir uğurla təşkil olunur. Böyük nüfuz qazanmış tədbir elmi-texniki kadrların hazırlanması və səviyyəsinin yüksəldilməsi, beynəlxalq əlaqələrin və əməkdaşlığın yaradılması, birgə elmi tədqiqatların həyata keçirilməsi, təcrübə mübadiləsi kimi məqsədlərə xidmət edir.

BDU-nun rektoru Elçin Babayev çıxış edərək konfransın işinə uğurlar arzulayıb. Rektor nitqində bildirib ki, Azərbaycanda dünya elminin tələblərinə cavab verən tədqiqatların aparılması, elmi-texniki potensialın inkişafı, eləcə də yüksəkixtisaslı kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizin davamlı inkişafı, iqtisadi, siyasi və hərbi qüdrəti təhsilin keyfiyyəti və səviyyəsi, həmçinin ölkənin elmi potensialı və bu sahələrdəki uğurları ilə bilavasitə bağlıdır. Hazırda BDU-da 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, bir neçə elmi-tədqiqat laboratoriyası, elmi kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 filial, 1 kollec və 1 lisey fəaliyyət göstərir.



BDU ölkəmizdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun kreativ düşüncəli mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, Fransa, İsrail, İsveç, Qazaxıstan və s. kimi ölkələrin qabaqcıl 8 universitet və institutu ilə bakalavriat, magistratura, doktorantura pilləsi üzrə beynəlxalq ikili diplom proqramlarını tətbiq edir. Tələbələr elmi fəaliyyətdə fəal iştirak edirlər - yeni yaradılmış Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində BDU tələbələrinin bilavasitə iştirakı ilə müxtəlif layihələr həyata keçirilir. Təsadüfi deyil ki, BDU-nun sənaye müəssisələri ilə əlaqələrinin inkişafı nəticəsində son 2 ildə 30-a yaxın milli və beynəlxalq qrant və müqavilə əsasında layihə həyata keçirilib, 80-dən çox tələbə, doktorant, gənc tədqiqatçı layihələrdə təmsil olunub.

"Clarivate Analytics" şirkətinin InCites qiymətləndirmə sisteminin nəticələrinə görə, 2017-2021-ci illərdə Azərbaycanda çap olunmuş elmi işlərin ümumi sayında BDU-nun payı 20%, Azərbaycan Respublikasının bütün ali məktəblərində çap olunan elmi nəşrlərdə isə 40% təşkil edir. BDU-nun Hirş indeksi artıq 52-dir və hər bir əsərə istinadların orta sayı 6.09-a yüksəlib. Qeyd edək ki, 2016-cı ilin sonunda BDU-nun h-indeksi 29-a bərabər olub. BDU beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir. Ötən il BDU Azərbaycandan yeganə universitet olaraq Times Higher Education beynəlxalq reytinqinə daxil edilib. Riyaziyyat, əsasən tətbiqi riyaziyyat və kompüter elmləri sahələri BDU-nun təbiət elmləri sahəsində 5 əsas prioritetlərə daxildir. Hazırda riyaziyyat üzrə elmi fəaliyyət üçün lazımi infrastruktura malik olan BDU-nun elmi-tədqiqat institutlarında və Mükəmməllik Mərkəzində bütün imkanlar yaradılır. BDU-nun əsas missiyası tələbələrin mürəkkəb problemlərin həllinə innovativ və yaradıcı yanaşmalarına imkan verəcək "Tədqiqat Universiteti" kontekstində təhsil və elmi tədqiqatların yenidən formalaşdırılmasıdır. Açılış mərasimindən sonra beynəlxalq elmi konfransın bölmə iclasları BDU-da davam edib. "COVID-19" pandemiyası ilə əlaqədar olaraq builki konfrans hibrid formatda - onlayn və əyani şəkildə keçirilib. Tədbirdə 30-dək ölkənin - Azərbaycan, Türkiyə, ABŞ, Hindistan, Rusiya, İran, Ukrayna, Özbəkistan, Oman, Mərakeş, Qazaxıstan, Qırğızıstan, Misir və s. kimi ölkələrin tanınmış alimlərinin "İdarəetmə nəzəriyyəsi", "Optimallaşdırma", "İntellektual sistemlər", "Faizi idarəetmə", "Şəbəkə və telekommunikasiya", "Ədədi və hesablama metodları", "Riyazi modelləşdirmə və simulyasiya", "Sənaye və iqtisadiyyatda tətbiqlər", "İdentifikasiya", "Fiziki problemlərdə optimallaşdırma prosedurlarının tətbiqi" kimi sahələr üzrə məruzələri dinlənilib. Konfrans materialları Web of Science bazasına daxil ediləcəkdir.

***

# COIA-2022 Beynəlxalq elmi konfransı başa çatıb




Avqustun 27-də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi, Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə "Sənaye tətbiqli idarəetmə və optimallaşdırma" (The 8th International Conference on Control and Optimization with Industrial Applications) mövzusunda 8-ci Beynəlxalq elmi konfransın (COIA-2022) bağlanış mərasimi keçirilib. BDU-nun rektoru Elçin Babayev üç gün davam edən konfransın işini yüksək qiymətləndirib, bölmə iclaslarında təqdim olunan məruzələrin, aparılan elmi müzakirələrin uğurlu nəticələr verəcəyinə əminliyini ifadə edib. Rektor gələcəkdə dünyanın tanınmış riyaziyyatçılarının iştirakı ilə növbəti elmi tədbirlərin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin təşkilatçılığı və ev sahibliyi ilə keçiriləcəyinə əminliyini ifadə edib. Rektor Elçin Babayev bu günün tarixi gün olduğunu bildirib, Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi münasibətilə konfrans iştirakçılarını təbrik edib. BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiat İnstitutunun direktoru Fikrət Əliyev ənənəvi olaraq təşkil olunan və üç gün davam edən tədbirdə idarəetmə və optimallaşdırma sahəsində dünyanın müxtəlif ölkələrindən olan tədqiqatçılar tərəfindən 299 elmi məqalənin təqdim olunduğunu bildirib. Bağlanış mərasimində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun baş direktoru Əli Abbasov, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin şöbə müdiri Şahin İsmayılov, Marağa Universitetinin professoru Əli Şükri, Doğu Akdeniz Universitetinin Riyaziyyat kafedrasının müdiri, professor Nazim Mahmudov çıxış edərək konfransın işini yüksək dəyərləndirib, təşkilatçılara və Universitet rəhbərliyinə minnətdarlıq ediblər. Qeyd edək ki, konfransda Azərbaycan, Türkiyə, ABŞ, Hindistan, Rusiya, İran, Ukrayna, Özbəkistan, Oman, Morokko, Qazaxıstan, Qırğızıstan, Misir və s. kimi ölkələrin tanınmış alimlərinin "İdarəetmə nəzəriyyəsi", "Optimallaşdırma", "İntellektual sistemlər", "Faizi idarəetmə", "Şəbəkə və telekommunikasiya", "Ədədi və hesablama metodları", "Riyazi modelləşdirmə və simulyasiya", "Sənaye və iqtisadiyyatda tətbiqlər", "İdentifikasiya", "Fiziki problemlərdə optimallaşdırma prosedurlarının tətbiqi" kimi sahələr üzrə 231 elmi məruzəsi dinlənilib. Konfransın materiallarının Web of Science bazasına daxil ediləcəyi nəzərdə tutulur.

# Türkiyənin "Letgen Biotechnology" şirkətinin rəhbəri BDU-da seminar keçirib

*Avqustun 11-də Türkiyə Respublikasının "Letgen Biotechnology" şirkətinin rəhbəri Fahrettin Özcan Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşları üçün biotexnologiya sahəsində ən son yeniliklərə, biotexnologiyanın tibb, kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsində tətbiqinə dair seminar keçirib.*



Seminarda həmçinin fundamental elmin sənayedə tətbiqi, innovasiyaların kommersiyalaşdırılması istiqamətindəki mərhələlər geniş müzakirə edilib.

Təlim zamanı PCR texnologiyasının tibb, qida təhlükəsizliyi və kənd təsərrüfatında istifadəsi haqqında ətraflı məlumat verilib. Eyni zamanda DNA və protein əsaslı diaqnostik dəstlərin müqayisəli təhlili aparılıb.

Görüşdə biotexnologiya sahəsində startap şirkətlərin texnopark imkanlarından istifadəsinin faydaları da müzakirə edilib.

# BDU məzunları AQTA-da işə qəbul ediləcək



*Avqustun 11-də Bakı Dövlət Universitetində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin iştirakı ilə Biologiya fakültəsinin məzunlarının iş imkanlarının dəyərləndirilməsi və onların gələcək inkişafının təmin edilməsi məqsədilə görüş təşkil edilib.*

Görüşdə ümumilikdə biotexnologiya, molekulyar biologiya, genetika, mikrobiologiya, biokimya və entomologiya ixtisasları üzrə təhsil almış 26 məzun iştirak edib.

Müsahibədən uğurla keçmiş məzunların Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda könüllülük fəaliyyəti və təcrübə proqramlarına cəlb olunması, eləcə də işə qəbul edilməsi nəzərdə tutulub.

# BDU-nun 1129 bakalavr və magistrantı yay semestri dərslərində iştirak edir

*Bakı Dövlət Universitetində 2021/2022-ci tədris ilində bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbə və magistrantların fənlər üzrə akademik borcların ləğv edilməsi və ya müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsi məqsədilə müraciətlərini nəzərə alaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na əsasən yay semestri təşkil edilib.*



Elmi Şuranın 08 iyul 2022-ci il tarixli 08 nömrəli qərarına əsasən, BDU-da yay semestrinin ənənəvi qaydada və "Blackboard" elektron tədris platforması vasitəsilə onlayn şəkildə 25 iyul tarixindən 6 həftə ərzində keçirilməsi nəzərdə tutulub. Ümumilikdə yay semestri dərslərində 206 fənn üzrə 1104 bakalavr və 25 magistr iştirak edir.

# "Biologiyada elmi nailiyyətlər və çağırışlar" mövzusunda 11-ci beynəlxalq elmi konfrans keçiriləcək

***2022**-ci ilin 13-14 oktyabr tarixlərində Bakı Dövlət Universitetində "Biologiyada elmi nailiyyətlər və çağırışlar" mövzusunda 11-ci beynəlxalq elmi konfrans keçiriləcək.*

Konfrans müasir biologiyanın fundamental və tətbiqi sahələri üzrə dünyanın müxtəlif ölkələrindən olan tədqiqatçıları bir araya gətirməklə əldə edilmiş ən mühüm nəticələri müzakirə etməyə, yeni prioritet istiqamətləri müəyyənləşdirməyə imkan verəcək, təhsil və elmi tədqiqatların əlaqələndirilməsinə, bu sahədəki bilik və bacarıqların optimallaşdırılmasına, habelə elmi əlaqələrin genişləndirilməsinə xidmət edəcək.

16 xarici ölkədən (Türkiyə, Fransa, İspaniya, Serbiya, Bolqarıstan, Pakistan, Hindistan, Belarus, İran, Nigeriya, Özbəkistan, Rusiya, Argentina, Braziliya, Qazaxıstan, Gürcüstan), ölkəmizin bir çox ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarından olan tədqiqatçıların iştirakı ilə keçiriləcək konfransda genetika, molekulyar biologiya, mikrobiologiya, biofizika, biokimya, fiziologiya, nanobiotexnologiya, botanika, flora müxtəlifliyinin mühafizəsi, zoologiya və akvakulturalar, canlı sistemlərin ekologiyası kimi sahələr üzrə məruzələr dinləniləcək, müzakirələr aparılacaq. Müxtəlif ölkələrdən olan dəvətli məruzəçilərin bu sahənin problemləri və alınmış ən son nəticələr üzrə çıxışları gözlənilir.

# BDU Türkiyədə keçirilən "TEKNOFEST 2022"də təmsil olunub

*Bakı Dövlət Universiteti Türkiyənin Samsun şəhərində avqustun 30-da keçirilən "TEKNOFEST 2022" Aerokosmik və Texnologiya Festivalında təmsil olunub.*

"TEKNOFEST Azərbaycan" festivalında "Aqrar texnologiyalar" və "Sosial yönümlü texnologiyalar" kateqoriyaları üzrə qalib (II, III yer) olan BDU-nun "Demetra" və "Nano" komandaları öz layihələrini Universitet üçün ayrılmış stenddə təqdim edib, layihələr haqqında ziyarətçilərə və müxtəlif investor şirkətlərə məlumat veriblər.

Festival iştirakçılarına həmçinin BDU haqqında bukletlər də təqdim olunub.

BDU təmsilçiləri festivala qatılan universitetlərin layihələri ilə yaxından tanış olub. Universitetlərin əməkdaşları və tələbələrinə BDU, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi və burada həyata keçirilən layihələr haqqında ətraflı məlumat verilib, müxtəlif istiqamətlərdə əməkdaşlıq imkanları ilə bağlı müzakirələr aparılıb.

*Mayın 26-29-da "TEKNOFEST" ilk dəfə Türkiyədən kənarda - Azərbaycanda keçirilib. "TEKNOFEST Azərbaycan" festivalını 300 minə yaxın ziyarətçi izləyib.*

Qeyd edək ki, avqustun 30-da Türkiyənin Samsun şəhərində "TEKNOFEST 2022" Aerokosmik və Texnologiya Festivalının rəsmi açılışı olub.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə ölkəmiz festivalda 300 kvadratmetr ərazini əhatə edən milli pavilyonla təmsil olunub.

"TEKNOFEST Azərbaycan"ın qalibi olmuş 16 komanda Samsun şəhərində keçirilən festivalda iştirak edir və layihələrini ziyarətçilərə təqdim edir. "TEKNOFEST 2022" Aerokosmik və Texnologiya Festivalı sentyabrın 4-dək davam edib.

"TEKNOFEST" Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi ilə Selçuk Bayraktarın rəhbərlik etdiyi Türkiye Teknoloji Takımı Vakfının (T3 Vakfı) birgə təşkilatçılığı, qardaş ölkənin 60-dan çox dövlət qurumu, ali məktəbi və özəl şirkətinin tərəfdaşlığı ilə 2018-ci ildən etibarən hər il keçirilir.

Mayın 26-29-da "TEKNOFEST" ilk dəfə Türkiyədən kənarda - Azərbaycanda keçirilib. "TEKNOFEST Azərbaycan" festivalını 300 minə yaxın ziyarətçi izləyib. Festival çərçivəsində 3 beynəlxalq tədbir və 8 texnoloji müsabiqə təşkil olunub.

# BDU alimlərinin məqaləsi yüksək impakt faktorlu jurnalda dərc olunub

Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının əməkdaşları Lalə Qəhrəmanlı, Mustafa Muradov, Qönçə Eyvazova və Kimya fakültəsinin Yüksəkmolekullu birləşmələr kafedrasının müəllimi Ofeliya Balayevanın "Sonokimyəvi və SİLAR üsulu ilə alınmış CdxZn1-xS nanomateriallarının struktur, optik və elektrik xassələri" ("Structural, Optical, and Electric Properties of CdxZn1-xS Nanomaterials by Sonochemical and Sılar Methods") adlı məqaləsi təsir faktoru (impact factor) 3.543 olan "Journal of Inorganic and Organometallic Polymers and Materials" beynəlxalq jurnalında dərc olunub. Məqalədə ilk dəfə olaraq sonokimyəvi və SİLAR üsulu ilə alınan nanomateriallarin dielektrik xassələri alınma üsulundan, tərkibindən, sintez temperaturundan asılı olaraq, eləcə də hər iki üsul ilə alınmış nanokompozitlərin optik və quruluş xassələri müqayisəli şəkildə analiz edilib.

# "BDU bizim üçün böyük imkanlar açdı"

*2021-2022-ci tədris ili üzrə Bakı Dövlət Universitetini 4120 bakalavr, 844 magistratura pilləsi olmaqla ümumilikdə 4964 tələbə bitirib. Bugünkü müsahiblərimiz bakalavr pilləsini fərqlənmə ilə bitirən məzunlarımızdır.*



Bakalavr məzunumuz
Nuranə Abbasova



Bakalavr məzunumuz
Şəbnəm Purməhəmməd Əbdollahi



Bakalavr məzunumuz
Şəhla Salahova



Bakalavr məzunumuz
Fizzə Məmmədova

***Şərşünaslıq fakültəsinin məzunu Nuranə Abbasova:***

"Hələ 12 yaşımda olarkən Koreya və Koreya dilinə yaranan marağım taleyimi Bakı Dövlət Universiteti (BDU) ilə birləşdirdi. Universitetdə oxuduğum dörd il ərzində həyatım çox dəyişdi. Bütün bu dəyişiklikləri öz xəyalıma addım-addım çatmaqda mənə kömək edən əziz universitetimə borcluyam. BDU-nun bizim üçün yaratdığı imkanlar və müəllimələrim sayəsində öz arzularıma doğru addımlayıram. Müəllimələrimiz ancaq ixtisasımıza yaxşı yiyələnməyə deyil, eləcə də vətənpərvər və dürüst insan olaraq böyüməyimizə bizi sövq edib. Universitet illərində Asiya ölkələri ilə bağlı keçirilən müxtəlif və rəngarəng tədbirlər sayəsində nəinki Koreya, həmçinin Yaponiya, Çin və digər Asiya ölkələri haqqında da biliklər əldə etdim. Bu il doğma Şərqşünaslıq fakültəmizin yaranmasından tam 100 il keçir. Şərqşünaslıq fakültəsinin 100 illik yubileyində fakültə birincisi olaraq məzun olmaq mənim üçün şərəfdir. Gələcəyə doğru daha iri addımlarla öz universitetimin adını daim yüksəltmək üçün əlimdən gələni edəcəyəm. Mən fəxr edirəm ki, BDU-nun Şərqşünaslıq fakültəsinin məzunuyam."

***Fizika fakültəsinin məzunu Şəbnəm Purməhəmməd Əbdollahi:***

"Mən 2018-ci ildə BDU-nun Fizika fakültəsinin ingilis dili bölməsinə bakalavr təhsili üzrə qəbul olunmuşam. Azərbaycanın ilk və ən nüfuzlu universitetlərindən birində təhsil ala bilmək imkanı inanılmaz dərəcədə qürurverici hissdir. Universitetdə yüksək səviyyədə təşkil olunan təhsil, müəllim və professor heyəti, qrup yoldaşlarım, xidmət heyəti, təşkil olunan saysız-hesabsız tədbirlər, elmi seminarlar mənim universitetə bağlılığımı daha da artırırdı. Bu dörd ildə BDU mənim üçün öz evim qədər doğma idi. BDU xarici tələbələrinə də həmişə qayğı ilə yanaşıb. Buna görə də universitetdən məzun olarkən qürur hissi ilə yanaşı böyük bir kədər də qəlbimdə yer alır. Çünki həyatımın ən gözəl dörd ilini mənim üçün BDU yaratmışdı."

***Geologiya fakültəsinin məzunu Şəhla Salahova*:**

"2022-ci il arzuladığım BDU-nun Geologiya fakültəsini birincilikla bitirməyin qürurunu yaşayıram. Hər bir gəncin arzusudur ki, uğurlu tələbəlik həyatı yaşasın və keçirdiyi tələbəlik illəri qazandığı uğurlar ilə yaddaqalan olsun. BDU mənə sadəcə uğurlu gələcək deyil, həmçinin özgüvən, insanları daha yaxşı tanıma və ünsiyyət qurma bacarığı, mükəmməl xatirələr və çox dəyərli insanlar qazandırıb. İxtisasım üzrə Azərbaycanın təcrübəli, işinə ömrünü həsr etmiş professor-müəllim kollektivindən dərs almağım ayrı bir qürurverici hissdir. Təhsil aldığım müddətdə verdikləri dəyərli məsləhətlərə görə müəllimlərimə minnətdarlığımı bildirirəm və mənə olan inamlarını həmişə doğrultmağa çalışacağam. BDU ailəsinin üzvü olan hər bir tələbə kimi bu ailədə mən də olduğum üçün fəxr edirəm. BDU ailəsinə yeni daxil olacaq hər bir tələbəyə uğurlar arzulayıram!"

***Tarix fakültəsinin məzunu (SABAH qrupları) Fizzə Məmmədova:***

"Bəzi qərarlar insanın həyatında köklü dəyişikliklərə səbəb olur. Bu baxımdan həmin qərarı verərkən ətrafımızdakı insanlarla məsləhətləşmək, seçimlərlə bağlı araşdırma etmək gərəklidir. Gələcək peşə seçimi də belə qərarlardan biridir. Ancaq mənə görə bununla bərabər daha önəmli bir nüans var, təhsilini hansı universitetdə alacağın. Mənim ixtisas seçimi fikrim 6-cı sinifdə artıq formalaşmışdı. Universitet fikri isə belə bir məfhumun varlığını bildiyim andan dəqiqləşmişdi. Bu məqsədə doğru çalışdığım vaxtlarda isə BDU arzularım daha da dərinləşirdi.

Qəbul imtahanlarının ilk cəhdində BDU-nun istədiyim ixtisasının balını toplaya bilmədim. Lakin hər gün BDU haqqında videoçarxı izləyərək hədəfə doğru addımladım. Və nəhayət daha artıq bal toplayaraq keçid balını geridə qoymuşdum. Valideynlərim və müəllimlərim tərəfindən başqa universitetlərdə başqa ixtisaslar məsləhət görülsə də, mən ancaq BDU fikrində təkid etdim. BDU-da təhsil aldığım müddətdə elə müəllimlərin mühazirələrini dinləmək imkanı əldə etdim ki, təkcə onların dərsində iştirak etmək belə bir universitet bitirməyə bərabərdir. Bu baxımdan yanaşsaq, mən özümü ən azı 10 universitet bitirmiş kimi hiss edirəm. BDU-da təhsil aldığım müddətdə həm pandemiya, həm də Vətən müharibəsinin şahidi olan tələbələr kimi, müəllim kollektivinin mütəmadi dəstəyini gördüyümü bildirməliyəm. SABAH qruplarında təhsil aldığım müddətdə hər zaman dərslərə yaradıcı yanaşmağımız tələb olunurdu. BDU dəhlizlərində dolaşmağın özü belə kifayət qədər maraqlı hadisələrə səbəb olurdu. BDU haqqında saysız xatirələrim və düşüncələrim var. Sonluq nə qədər şablon olsa da, səmimi söylədiyimi əmin edərək bunları demək istəyirəm: "Tələbə kimi yenidən oxumaq imkanım olsa, yenə də BDU-nu seçərdim".

***Nərminə Əsədova,***
***Gülabə Məmmədzadə***

# "AzMUN" proqramı çərçivəsində məlumat sessiyası keçirilib

***Avqustun 24-də Bakı Dövlət Universitetində "AzMUN - ölkəmizdə BMT Modeli klubları şəbəkəsinin fəaliyyətinin dəstəklənməsi" proqramı çərçivəsində məlumat sessiyası keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov bu cür klubların yaradılmasının gənclərimizin potensialını üzə çıxarmaq baxımından çox əhəmiyyətli olduğunu diqqətə çatdırıb. O, çıxışında BDU-da gənclər siyasəti istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib. Daha sonra çıxış edən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli qeyd edib ki, BMT Modeli klubları BMT orqanlarının simulyasiyasını həyata keçirir, tələbələrdə natiqlik qabiliyyətini inkişaf etdirir, eyni zamanda onlarda təmsil olunduqları nümayəndə heyətini düzgün təqdim etmək vərdişləri aşılayır.



Çıxışlarda həmçinin Azərbaycanda BMT Modeli Hərəkatının fəaliyyətinə toxunulub, natiqlər, ali və orta ixtisas təhsili müəssisələrində BMT Modeli klublarının yaradılması, konfransların keçirilməsi və klublara üzv gənclərin şəbəkəsinin genişləndirilməsinin vacibliyini qeyd ediblər. Eyni zamanda AzMUN Proqramının gələcək fəaliyyət planı açıqlanıb. Plana görə, BMT Modeli konfranslarının keçirilməsi, BMT Modeli klublarının şəbəkələşmə görüşləri, həmçinin ekspertlərlə təlimlər nəzərdə tutulub. Daha sonra tələbələr arasında İsrail-Fələstin münaqişəsi mövzusunda keçirilən qısa simulyasiya oyunu gənclər tərəfindən böyük maraqla qarşılanıb. Simulyasiya zamanı gənclər müxtəlif ölkələrin nümayəndələri rolunda çıxış edərək təmsil etdikləri ölkələrin sözügedən münaqişə barədə olan mövqelərini bildiriblər.

Qeyd edək ki, BMT Modeli konfranslarında iştirak tələbələrə ictimai nitq, diplomatiya, liderlik bacarıqları qazandırır. Bundan əlavə, onlara BMT-nin orqanlarının iş prinsipi ilə tanış olmaq, ölkəmizi beynəlxalq arenada təmsil etmək istiqamətində təcrübə toplamaq imkanı yaradılır.

# Ana qədər əziz, Vətən kimi müqəddəs

***Milli kimliyimizin açar sözü, bulaq suyu kimin saf və axıcı, tarixirimiz qədər zəngin... Bu, bizim Ana dilimizdir. Milli sərvətimiz, müstəqilliyimizin əsas sütunlarından biri. Dilimizin ən böyük vurğunu və hamisi, Ümummilli lider Heydər Əliyevin də dediyi kimi, "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik. İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".***




***"Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik. İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur"***

***Heydər Əliyev***

Bu gün Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür. Ümummilli lider Heydər Əliyevin imzaladığı 9 avqust 2001-ci il tarixli 552 nömrəli fərmanla hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Ulu öndər həmin fərmanı latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalayıb.

Sovet dövründə yaranmış əngəllərə baxmayaraq, sarsılmaz təməlləri olan Azərbaycan dili mövcudluğunu qoruya bilib. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində müstəqil Dilçilik İnstitutunun yaradılması dilçiliyimizin bir elm kimi inkişafına ciddi təkan verib. Sonrakı illərdə Azərbaycan dilinin mövcud təhlükələrdən qorunması və gələcək nəsillər üçün mühafizə edilməsi istiqamətində Ulu öndər Heydər Əliyevin xidmətləri misilsizdir.

1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Ümummilli liderin cəmi bir neçə aydan sonra Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söyləməsi həmin dövr üçün böyük bir hünər, cəsarət olmaqla bərabər, onun milli dəyərlərə, soy - kökə bağlılığının bariz nümunəsi idi. BDU-nun 50 illik yubileyindəki nitqindən başlayaraq Ulu öndər o dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər şəxslərə də tövsiyə edirdi.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edilən zaman oraya dövlət dili haqqında maddənin salınmaması ilə heç cür barışmayan Ümummilli lider bu məsələdə sonadək öz prinsipial mövqeyini göstərib. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Ali Sovetin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Ulu öndər Heydər Əliyevin təkidi ilə 73-cü maddəni yeni dəyişikliklə vermək qərara alınır. Bu dəyişiklik Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu əks etdirir. Bütün çətinliklərə baxmayaraq, Ümummilli liderin bu cür tarixi qərara nail olması mənəvi varlığımızın əsası sayılan dilimizin inkişafında böyük addım oldu.

Ümummilli liderin milli varlığımızı qorumağa yönəlik siyasəti onun hakimiyyətə ikinci dəfə qayıdışından sonra daha da geniş vüsət aldı. Ulu öndər ana dilimizin saflaşdırılması və zənginləşdirilməsi istiqamətində mühüm addımlar atdı, Azərbaycan dilinin inkişafı və qorunması məqsədilə əhəmiyyətli sənədlər təsdiq etdi. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması ana dilimizin gözəl bilicisi, mahir natiq Ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Müstəqil Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, onun rəsmi dövlət dili statusuna yüksəlməsi milli dövlətçilik tariximizin ən önəmli hadisələrindən biridir. Bundan sonra dövlət səviyyəsində ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edilib. Ümummilli liderin 2001-ci il iyulun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", həmin il avqustun 9-da imzaladığı "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" fərmanlar ana dilimizin qorunması və inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. 2003-cü il yanvarın 2-də isə Ulu öndər Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə minib. Qanunda dövlətin ana dilinə qayğısı istiqamətində əsas vəzifələr dəqiq göstərilib.

Ulu öndər deyirdi: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azəbaycançılıq məsələsidir".

Ümummilli liderin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısının 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı ilə hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanır.

Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı 2013-cü il 9 aprel tarixli sərəncamı ilə təsdiq etməsi milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisədir. Dövlət Proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasıdır. Sənəd, eyni zamanda, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini nəzərdə tutur.

Prezident İlham Əliyevin "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli sərəncamı Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlətimizin başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanı ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir. Dil quruculuğu ilə bağlı olan bu sənəd Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi statusunun möhkəmlənməsi istiqamətində atılmış mühüm addımlardan biridir. Həmin fərmandan irəli gələn vəzifələrin icrası çərçivəsində Nazirlər Kabinetinin müvafiq qərarı ilə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi yaradılıb.

Ana dilimiz dövlətimizin, millət kimi varlığımızın təməl daşlarından biridir. Onun saflığını qorumaq, daha da zənginləşdirmək və gələcək nəsillərə ötürmək hər birimizin vətəndaşlıq borcudur.

# BDU-da Texnologiya Transfer Ofisi fəaliyyətə başlayacaq

***Bakı Dövlət Universitetinin nəzdində Türkiyənin Ankara Universiteti və İzmir Yüksək Texnologiya İnstitutu ilə əməkdaşlıq çərçivəsində Texnologiya Transfer Ofisi fəaliyyətə başlayacaq.***

Texnologiya Transfer Ofisi innovativ ideya və elmi nəticələrin kommersiyalaşdırılması, şirkətlərlə iş, akademik heyətin və tələbələrin tətbiq xarakterli layihələrə cəlb edilməsi, beynəlxalq qrantlara çıxış, qrant layihələrinin hazırlanması, patentləşdirmə, universitet-sənaye əməkdaşlığının formalaşdırılması istiqamətlərində fəaliyyət göstərəcək. Texnologiya Transfer Ofisi xüsusilə startap şirkətlərin qurulması üçün münbit şəraitin formalaşmasında, kommersiya dəyəri olan ideya və nəticələrin sənayeyə tədqimatında və tətbiqində mühüm rol oynayacaq.

# BDU və Ankara Universiteti ortaq arxeoloji tədqiqatlar aparmağı planlaşdırıb

***Bakı Dövlət Universiteti və Türkiyənin Ankara Universiteti arasında ortaq arxeoloji tədqiqatlar aparılması və arxeologiya sahəsində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparılıb.***

Bu barədə BDU-nun rektoru Elçin Babayevin Türkiyəyə səfəri zamanı Ankara Universitetinin rektoru Necdet Ünüvarla görüşündə ilkin razılıq əldə olunub. Ortaq arxeoloji tədqiqatların aparılması üçün hər iki universitetin akademik heyətlərinin və tələbələrinin iştirakı ilə işçi qruplar yaradılacaq.

Akademik heyətdə eyni zamanda molekulyar bioloqlar da iştirak edəcəklər. Onlar əldə edilən fosil qalıqları üzərində genişmiqyaslı genom analizləri də aparacaqlar.

# Nəcib insan və dəyərli alim...

## AYAZ MUSAYEVİN VƏFATI ELMİ-PEDAQOJİ MÜHİTİMİZ ÜÇÜN AĞIR İTKİ OLDU

*O səhəri üzücü bir xəbərlə açdıq. Fakültəmizə, universitetə, nəhayət, Azərbaycan jurnalistikasına ağır itki oldu Ayaz müəllimin vəfatı. Alicənablığı, ziyalılığı, müdrikliyi hər addımında sezilən insan, şərəfli ömür yolu keçən müəllim - Xalq yazıçısı Qılman İlkinin yadigarı idi Ayaz Musayev.*

"Müəllimi bu dünyadan köçən insan özünü yetim kimi hiss edir, axı onlar bizi həyata hazırlayırlar..." Tələbələrindən biri sosial şəbəkədə Ayaz müəllimin vəfatından sonra yazıb bu sözləri. Onun haqqında deyilənlər, yazılanlar Ayaz müəllimin özü qədər səmimi və dəqiqdir.



Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müəllimi Ayaz Musayev 1947-ci ildə Bakı şəhərində anadan olub. 1970-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq ixtisası üzrə bitirib. 1982-1985-ci illərdə Moskva Poliqrafiya İnstitutunda redaktor ixtisası üzrə ikinci ali təhsil alıb.

1970-1972-ci illərdə Azərbaycan Jurnalistlər Birliyinin, "Müxbir", 1973-1974-cü illərdə Azərbaycan Mətbuat Nazirliyinin "Kitablar aləmində" jurnallarında ədəbi işçi vəzifələrində çalışıb. 1974-2004-cü illərdə "İşıq" nəşriyyatında redaktor, böyük redaktor, redaksiya müdiri vəzifələrində işləyib. 1977-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olub.

Ayaz müəllimi 2004-cü ildən - Bakı Dövlət Universitetində işləməyə başladığı vaxtdan tanımışam. Çox nizam-intizamlı, öyrətməyi sevən, fakültədə hamının hörmətlə yanaşdığı, dəyər verdiyi, tələbələrin sevgisini qazanan müəllimlərimizdən idi... Tələbələrini səbrlə dinləyib, suallarını ətraflı, dəqiq cavablayardı. Həmişə zövqlə, səliqəli geyinər, səsinin tonunu qaldırmadan aramla danışar, elə bu keyfiyyələri ilə də gənclərə mesajını verərdi. Öz davranışı ilə də örnək idi - Ayaz müəllimin sakit, təmkinli, dəqiq, NƏCİB obrazı həmişə yaddaşımızda qalacaq.

Dərs ilinin sonuna doğru Ayaz müəllimin tələbələr üçün "Jurnalistin nitq mədəniyyəti" adlı praktik vəsaiti dərc olundu. O qədər sadə və təmənnasız insan idi ki, kitabı mənə hədiyyə edəndə təqdimatının daha geniş keçirilməsini təklif etməyimə baxmayaraq, özünəməxsus alicənablıqla "təki tələbələrimzə faydalı olsun, yetər" demişdi.

Özü barədə, gördüyü işlər haqqında danışmağı sevməzdi. Ayaz müəlimi tanımaq üçün auditoriyada ondan dərs almaq, bir də müəllifi olduğu kitabları oxumaq lazımdır. İmzası ilə mənə bağışladığı kitablarını vərəqləyirəm. "Dialoq" kitabında müəllifin məqalə və oçerkləri, resenziyaları, araşdırma və xatirələri, hətta başına gələn məzəli əhvalatlar haqqında yazdıqları da toplanıb. Auditoriyada nəzəri biliklər öyrədən müəllim tələbəsi ilə praktik dialoqunu sanki bu kitabla davam etdirib.

"Fikirlərə bürünmüş sətirlər" kitabında Ayaz Musayevin bir müdrik deyimi diqqətimi çəkir: "Gözəl danışmağı bacaran adam gözəl susmağı da bacarmalıdır!" Onun çox vaxt susub baş verənləri kənardan səssizcə müşahidə etməsini xatırlayıram.

Allah sizə rəhmət eləsin, "gözəl susmağı" bacaran adam!

*Xatirə HÜSEYNOVA*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*"525-ci qəzet"*

---

# Pənahəli xanın nəslindən olan Məhəmmədəli Əkbərovun BDU tələbələri ilə görüşü

***Avqustun 10-da Bakı Dövlət Universitetinin və SABAH Mərkəzinin birgə təşkilatçılığı ilə Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəslindən olan Məhəmmədəli Əkbərovun tələbələrlə görüşü keçirilib.***

Diaspor Gənclərinin Şuşada keçirilən III Yay Düşərgəsində iştirak etmək üçün Azərbaycanda səfərdə olduğunu deyən Məhəmmədli Əkbərov bildirib ki, İspaniyada yaşasa da, hər zaman Azərbaycana sevgi ilə yanaşıb. O vurğulayıb ki, ailəsi hər zaman azərbaycançılığı yüksək səviyyədə təbliğ edib. 21 yaşının olduğunu deyən qonaq İspaniyanın Arabada şəhərində anadan olduğunu, sonradan valideynlərinin Madridə köçdüyünü, hazırda bu şəhərdə universitetdə Kriminalistika fakültəsinin 3-cü kursunda təhsil aldığını qeyd edib.



Məhəmmədəli Əkbərov İspaniyada Azərbaycanla bağlı keçirilən bütün tədbirlərdə iştirak etdiyini görüş iştirakçılarının diqqətinə çatdırıb.

Pənahəli xanın nəslinin davamçısı vurğulayıb ki, Heydər Əliyev Fondu və Diasporla iş üzrə Dövlət Komitəsinin birgə təşkil etdiyi Diaspor Gənclərinin Şuşada keçirilən III Yay Düşərgəsində 55 xarici ölkədə yaşayan 116 gənc iştirak edib. O, azad Qarabağı görməkdən və Şuşada olmaqdan böyük qürur hissi keçirdiyini bildirib. Qonaq Ağdamda Pənahəli xanın, onun oğlanlarının sarayının yerləşdiyi İmarət kompleksini və ulu babasının inşa etdirdiyi Şahbulaq qalasını da ziyarət etdiyini deyib. Sonda Məhəmmədəli Əkbərov İspaniyada təhsil ilə bağlı tələbələrin suallarını cavablandırıb.

---

# BDU-nun əməkdaşlarının təqdim etdiyi layihə üzrə müsabiqənin qalibi olub

***Bakı Dövlət Universitetinin əməkdaşlarının təqdim etdiyi layihə ilk dəfə olaraq Erasmus+ Jean Monnet proqramı üzrə müsabiqənin qalibi olub. Layihə Erasmus+Jean Monnet fəaliyyətləri çərçivəsində modul səviyyəsində təqdim edilib.***

Layihənin rəhbəri BDU-nun Üzvi kimya kafedrasının professoru Ülviyyə Həsənova, layihə iştirakçıları isə BDU-nun Sənaye kimyası ETL-in müdiri Ələkbər Hüseynzadə, həmin laboratoriyanın kiçik elmi işçisi Əlibala Əliyev, Mikrobiologiya və virusologiya ETL-in böyük elmi işçisi Aygün İsrayılova, Nanoaraşdırmalar ETL-in böyük laborantı Günel Əliyeva və Maliyyə və menecment kafedrasının baş müəllimi Ləman Azizovadır. BDU-nun əməkdaşlarının təqdim etdiyi "Green oriented studies in EU" (Avropa Birliyində (AB) "Yaşıl Araşdırmalar") adlı layihənin müddəti 36 aydır və məqsədi müasir dövrün ekoloji və iqtisadi çağırışlarına uyğun olaraq "yaşıl saha"də əmək bazarının tələblərinə uyğun mütəxəssislərin yeni nəslinin hazırlanmasıdır. Layihə çərçivəsində BDU-nun Kimya və Biologiya fakültələrində 3 "yaşıl" fənn modulunun tətbiqi ilə yeni məzmunda təhsil proqramları hazırlanacaq. Layihə həmçinin Azərbaycan və AB arasında da bu istiqamətdə əməkdaşlığın inkişaf etdirilməsinə imkan verəcək.

Qeyd edək ki, Avropa Komissiyası 1989-cu ildə Avropa İttifaqı tədqiqatları sahəsində tədris və tədqiqatda mükəmməlliyi təşviq etmək üçün Jean Monnet Fəaliyyətlərinə başlayıb. Bu istiqamətdə 100-ə yaxın ölkənin 1000-dən çox ali təhsil müəssisəsinə maliyyə dəstəyi edilib və proqramlarda 9000-ə yaxın akademik heyət iştirak edib.

---

# BMT-nin Kosmos Məsələləri üzrə Ofisi və BDU tərəfindən keçiriləcək beynəlxalq tədbirə qeydiyyat başa çatıb

***2022-ci il 31 oktyabr - 4 noyabr tarixlərində BMT-nin Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və Bakı Dövlət Universiteti (BDU) tərəfindən keçiriləcək "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer üzrə BMT/Azərbaycan işçi seminarı" ("United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere") adlı beynəlxalq tədbirə qeydiyyat avqustun 15-də başa çatıb.***

Bakı şəhərində keçiriləcək yüksək səviyyəli tədbirə Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitə (ICG) də dəstək verəcək.

# Milli ruha bağlı müqəddəs missiya

## Milli köklərə bağlı "Füyuzat" jurnalı da Azərbaycan jurnalistikasının klassik nümunəsi kimi müstəqillik dövrümüzün diqqətində oldu.

***Azərbaycan mətbuatının enişli-yoxuşlu inkişaf mərhələlərində 1900-cü illər öz məhsuldarlığı, meydana çıxan jurnal və qəzetlərin tipoloji xarakterinin, informasiya siyasətinin, tematikasının zənginliyi ilə xüsusi bir dövr kimi qiymətləndirilir. Bu onillikdə «Molla Nəsrəddin» kimi izi tarixdə həmişə görünəcək bir satirik dərgi işıq üzü gördü və tezliklə ayrıca bir ədəbi məktəbə çevrildi. Bu onillik Azərbaycan mətbuatı xeyli dərəcədə milli düşüncəmizin və türkçülüyün inkişafında rolu olan Əli bəy Hüseynzadənin adı ilə də bağlıdır.***

Azərbaycan mətbuatının yeni səhifələrindən olan «Həyat» qəzeti və «Füyuzat» jurnalı bu böyük millət fədaisinin yeni əsrin çağırışlarına ziyalı cavabı idi. Xüsusilə «Füyuzat» jurnalı özünün yeni və orijinal yanaşması ilə jurnalistikamızda hadisə səviyyəsinə yüksəldi. Jurnalın proqramını ifadə edən «ədəbi, fənni, siyasi, ictimai, müsəvvər» loqosu onun geniş tematikaya, zəngin yaradıcılıq prinsiplərinə sadiq olacağını vəd edirdi. Ünlü mətbuat tədqiqatçımız Əziz Mirəhmədovun sözləri ilə desək, «Füyuzat» jurnalının yaradıcılıq yolu ədəbiyyat, mətbuat, fəlsəfəyə xidmət, sosial kredosu azadlıq, milli tərəqqi naminə birliyə çağırmıq idi».

«Füyuzat» jurnalının nəşrə başladığı dövr - XX əsrin başlanğıcı çox keşməkeşli bir zamana təsadüf edir. Bu dövr özünün böyük səciyyəsini məhz ədəbi-bədii, publisistik düşüncədə tapır. Akademik K.Talıbzadənin ifadəsi ilə desək, «Xalqımızın ədəbi-bədii düşüncə təkamülünün klassik normalarla inkişafı tarixində XX əsrin əvvəlləri bir sıra yeni keyfiyyət göstəriciləri ilə fərqlənir və bu dövr müddət etibarı ilə qısa olsa da, mahiyyətinə görə intibah səciyyəsi daşımaqdadır». Həqiqətən, bu «intibah səciyyəli» zamanda «Şərqi-Rus», «Həyat», «Molla Nəsrəddin», «İrşad», «Bəsirət», «Tazə həyat», «Həqiqət», «İqbal», «Tərəqqi» və s. kimi hər biri özünü ayrıca məktəb səviyyəsində göstərən mətbuat orqanları meydana çıxmışdır. Bu mətbuat orqanları mövzusu, tematikası cəhətdən maarifə, milli istiqlala, xalqın özünüdərkinə daha çox diqqət ayırırdı. Elə buna görədir ki, bu mətbuat orqanlarının darısqal redaksiyalarında Azərbaycanın ən böyük ziyalıları, Azərbaycan və azarbaycançılıq ideyalarını gerçəkləşdirməyə can atan ədiblər toplaşırdı.

Bu mətbuat orqanlarının böyük əksəriyyəti milli istiqlal və milli özünüdərki əsas mövzu seçirdi. Və həyatın elə bir aktual problemi ola bilməzdi ki, onlarda öz əksini tapmasın. Məsələn, bu gün ən aktual səslənən Qarabağa, İrəvana, Naxçıvana erməni iddiaları XX əsrin lap əvvəllərində nəşr olunan bu mətbuat orqanlarında publisistlərin aparıcı mövzularından olmuşdur. Professor Ş.Hüseynov müxtəlif kitabları bir neçə dəfə «Tarixin ibrət dərsləri» başlığı altında bu problemin klassik jurnalistikada necə qoyulduğu barədə maraqlı nümunələr təqdim etmişdir.

Hələ o zaman cavan bir publisist olan Ö.F.Nemanzadə «Nə etməliyik» adlı məqaləsində erməni xislətini açır, ona inanmağımızın, sadəlövhlüyümüzün hara gətirib çıxardığını yana-yana qeyd edirdi: «Bu inanmaqlığımız, bu sadədilliyimiz səbəbilə idi ki, böyügümüz, kiçiyimiz, yazıçımız, müxbirimiz... bir sözlə cümləmiz qonşu ermənilər ilə yenə qədimsayaq üzrə, sülhanə rəftar edib rahat və arxayın olmağı vəz və bəyan ediyorduq. Və bu surətlə millətimizin gözünü qafilanə bağlayıb böyük bir təhlükə və uçuruma sarı hazırlayırıq ki, o təhlükənin əvvəlinci zərbəsini Qarabağ süqutu çox açıq meydana çıxartdı. İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq». Doğrudan da tarixin əsl «ibrət dərsidir». Çox təəssüf ki, sonralar bu növ böyük publisistika arxayıncasına gizlədilmişdir...

Klassik jurnalistika milli dilin qorunması və zənginləşdirilməsi, milli-mənəvi dəyərlərin qorunması, dünya mədəniyyətinə diqqət və s. kimi köklü problemlərin həllinə kömək olan maarifçiliyi ön plana çəkirdi. 100 illiyini qeyd etdiyimiz «Füyuzat»da bu mövzuları xeyli diqqət ayrılmışdır..

Bugünkü mətbuatımızın bir sıra nümunələri klassik jurnalistikamızın möhtəşəm ənənələrini davam etdirir. Sovet dönəmində mətbuat üzərində nə qədər ciddi senzura qadağaları olsa da, qəzetlərimiz klassik jurnalistikamızın maarifçilik ənənələrini yaddan çıxarmamışdır. Xüsusilə ədəbi-bədii publisistika, ədəbi tənqid, satirik publisistika kimi sahələr xalqın milli-mənəvi dəyərləri kimi mövzuları diqqətdən yayındırmamışdır.

Azərbaycanın yeni müstəqillik dövrünün mətbuatı klassikadan çox şey tətbiq etdi. Xüsusilə 1980-ci illərin axırları, 1990-cı illərdə klassik mətbuat nümunələrinin yenidən nəşrə başlaması, klassik qəzet adlarının təkrarı, klassik üslubun dirçəldilməsi, o dövrün mətbuatında özünü göstərən tematikanın gündəmə gətirilməsi prosesi başladı. 1918-ci ilin «Azərbaycan» qəzeti yenidən nəşrə başladı, Azərbaycan Xalq Cümhuriyyəti mövzusu gündəmə gəldi, Ü.Hacıbəyli, Ö.F.Nemanzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu ... irsi çap edildi. «Açıq söz», «Füyuzat» kimi mətbuat orqanları tədqiqata cəlb olundu və s.

Məlumdur ki, sovet senzurası «Füyuzat», «Açıq söz» kimi mətbuat orqanlarının tədqiqini qəti qadağan etmişdi. Bir sıra mövzuların üzərinə tabular qoymuşdu. Yeni dönəm nəinki bu qadağaları dəf etdi, habelə həmin mətbu orqanlarının bəzilərinin hətta yenidən nəşrinə başladı.

Milli köklərə bağlı «Füyuzat» jurnalı da Azərbaycan jurnalistikasının klassik nümunəsi kimi müstəqillik dövrümüzün diqqətində oldu. Bu jurnal Ofelya Bayramova, Şamil Vəliyev və s. kimi alimlərin tədqiqat obyektinə çevrildi. O.Bayramova bütövlükdə Əli bəy irsinin və xüsusi olaraq «Füyuzat»ın yeni nəsil oxucusuna çatdırılmasında misilsiz xidmət göstərdi. Bu sırada Azərbaycan klassik ədəbi irsinə böyük sevgi hissilə yanaşan, tədqiqatlarını milli-azadlıq yolunda qələm çalmış ədəbi qüvvələrin əsərlərinə həsr etmiş professor, filologiya elmləri doktoru Teymur Əhmədovun da xidmətləri danılmazdır. Onun ideyası və təşəbbüsü ilə yaradılmış «Milli irsi, mədəni, tarixi araşdırmalar» fondu 2007-ci ilin yanvar ayından tarixi «Füyuzat»ı yenidən millətə qaytardı. «Füyuzat»ın 100 illiyinin sonunda ona yenidən qayıdış Azərbaycan jurnalistikasının öz tarixinə, ənənəsinə, ədəbi dəyərlərinə qayıdışı kimi qiymətləndirildi. Yeni «Füyuzat»ın baş redaktoru T.Əhmədov jurnalın yenidən nəşrinin ilk nömrəsindəki proqram məqaləsində yazırdı:

«Sovet hakimiyyəti illərində Əli bəy Hüseynzadənin ədəbi yaradıcılığının öyrənilməsinə qadağalar qoyulmuşdu, «burjua ideoloqu» kimi onun zəngin irsinə, bəşəri ideyalarına kölgə salınmışdı. Azərbaycanda milli müstəqillik bərpa edildikdən sonra bütün varlığı ilə vurğunu olduğu doğma xalqı ilə ruhən qovuşdu. Onun böyük şəxsiyyətinə, əsərlərinə münasibət kökündən dəyişdi. «Milli, irsi, mədəni, taixi araşdırmalar» fondunun təsis etdiyi yeni «Füyuzat» jurnalı səhifələrində Əli bəy Hüseynzadənin tövsiyə etdiyi ideyalara istinadən tarixi keçmişimizi, milli soykökümüzü, türk qövmünün mənşəyini araşdıran tədqiqatçıların əsərləri vaxtaşırı özünə yer tapacaqdır. Bununla yanaşı Azərbaycan xalqının ədəbi müstəqil hakimiyyətə qədəm qoyduğu ilk illərdə elmin və milli mədəniyyətin yüksəlişinin aynası olacaqdır».

Yeni «Füyuzat» özünün proqram məqaləsindəki bu vədi ləyaqətlə yerinə yetirməkdədir. İndi bu yeni nəşrin 10 ili tamam olur. Bu on ildə «Füyuzat»ın zəngin tematikasında milli azadlıq mövzusu, müstəqilliyimizin qorunması, ictimai, siyasi həyatımızın, ədəbi dünyamızın ictimai maraq kəsb edən hər bir faktı jurnalın ümumi mənzərəsində öz əksini tapmışdır. Baş redaktor T.Əhmədov adını çəkdiyimiz proqram məqaləsinin fonunda üzünü müasir ziyalılarımıza tutaraq yazırdı: «Əli bəy Hüseynzadənin baş redaktorluğu ilə nəşr olunan «Füyuzat» məcmuəsinin 100 illiyi yubileyində onun davamı kimi 2007-ci ilin yanvar ayında «Füyuzat» ədəbi, ictimai, siyasi, ədəbi-bədii və fəlsəfi jurnalının oxuculara təqdimini iftixar hissi ilə qeyd edir, onun uzun ömürlü olmasında əli qələmli, fikri işıqlı, qəlbi milli müstəqilliyimizin möhkəmlənməsi, xalqımızın məsud, vətənimizin gündən-günə çiçəklənməsi qəhrini çəkən, qeyrətli ziyalılara güvənirik».

Baş redaktorun güvəndiyi ziyalı qüvvələri «Füyuzat»ın aparıcı müəllifləri kimi çox böyük iş gördülər. Onun səhifələrində akademik Fuad Qasımzadə, Ofelya Bayramlı, Bəxtiyar Vahabzadə, İradə Tuncay, Azər Turan, Ağa Hacıbəyli, Şirməmməd Hüseynov, Firdovsiyyə Əhmədova, Şahlar Əsgərov, Şəmistan Nəzir-li, Muxtar Cəfərli, Könül Bünyadzadə, Gülarə Munis, Qərənfil Dünyaminqızı, Aslan Kənan, Akif Rüstəmov, Könül Niftəliyeva, Maarif Teymur, Aynur Nəsirova, Pərvanə Məmmədli və digər onlarca görkəmli alim - tədqiqatçı, jurnalist və yazıçı çeşidli mövzularla çıxış etdilər və etməkdədirlər.

Yeni «Füyuzat»ın ən müqtədir müəllifləri sırasında klassik jurnalist və yazıçılar xüsusi yer tuturlar. Biz bu on illik nömrələrdə M.Ə.Rəsulzadənin, Ə.Hüseynzadənin, M.Ə.Sabirin, M.Hadinin, S.Vurğunun və digərlərinin milli azadlığa çağırış əsərlərini yenidən oxuyası olduq. Həm də sovet dövründə üzərinə qadağalar qoyulmuş bu əsərlər Azərbaycan ziyalısının hələ yüz il bundan əvvəl göstərdiyi milli qeyrət nümunələrinin nə qədər qiymətli olduğunu bir daha göstərdi.

«Füyuzat»ın birinci nömrəsindəki proqram məqaləsində onun baş memarı Əli bəy Hüseynzadə yazırdı: «Həyat vicdani feyzlərə meyl arzusudur. Həyatın xüsusiyyətlərindən olan bütün cəhd və mübarizələrimiz bu mənəvi şövqə təşviq ilə meydana gəlməkdədir. Bir fərddə, bir camaatda, bir millətdə, bütün bəşəriyyətdə füyuzat şövqü yoxdursa, o fərd, o camaat, o millət ümumiyyətlə bütün bəşəriyyət ölü sayılmalıdır. Hərəkət və fəaliyyət göstərsə belə, ölü sayılmalıdır. Çünki bir meyitin, ölü bir bədənin çürüyüb su, torpaq və havaya çevrilməsi belə, bir növ hərəkət və fəaliyyətdir. Həyatın kamillik dərəcəsi şövq və arzunun şiddəti ilə, nailiyyəti isə arzu olunan vicdani feyzlərin ülviyyət, saflıq və davamlığı ilə ölçülə bilinir… Şübhə yoxdur ki, hər bir canlı varlıq füyuzatı bir cür anlayır. Ola bilər ki, acgözün biri füyuzatı gözəl və bol-bol yeyib içməkdə görər və ya dünyapərəstin biri isə xanəndə və sazəndələr arasında, bağ və bağça içində tam səhhət və afiyətlə uzun müddət yaşamaqda görər. Lakin o bağçanın, o səfaxanənin qapısı qarşısında yığılan bir dəstə ac və çılpaq, məsələn, Zəngəzur zərərçəkənlərinin, didərginlərinin ahu-fəğanlarından vicdanınız əzab çəkməzmi?... Əzab çəkən bir vicdanla bağ və bağçanın nə səfası ola bilər?... Yeyilən yemək asanlıqla həzm olunarmı? Həyatın kamilliyi üçün arzu olunan vicdani feyzlərin davamlılığı şərtdir, dedik. Bunu izah edək: Bir fəqir mömin vicdanın paklığı və saflığı sayəsində ölümdən sonra ədəbi olacağından əmindir».

Əli bəy Hüseynzadənin bu proqram məqaləsi jurnalın tipoloji xarakterini müəyyən etdi. Elə jurnal ki, redaktorun həmin fikirləri, xüsusilə «Zəngəzur zərərçəkənlərinin, didərginlərinin ahu-fəğanlarından vicdanınız əzab çəkərmi?» kimi sözləri elə bu gün üçün də nə qədər müasir səslənir. Klassika ona görə klassikadır ki, o, dünəni də, bu günü də görə bilir. «Füyuzat» dünəni, bu günü, sabahı gördü. Yeni «Füyuzat» məhz buna görə meydana çıxdı. Şəhidlərimizin ideyalarını qiymətləndirmək, bu günə daşımaq, sabaha ünvanlamaq kimi müqəddəs bir missiyanı şərəflə yerinə yetirən «Milli, irsi, mədəni, tarixi araşdırmalar» Fondunun milli ruha bağlılığına eşq olsun. On iliniz mübarək!

***Cahangir Məmmədli***
*Milli mətbuat tarixi kafedrasının müdiri*
*filologiya üzrə elmlər doktoru, professor*

*"Füyuzat" jurnalının 2018 (3)*

# MÜHARİBƏ DÖVRÜNDƏ ERMƏNİSTAN MEDİASI

***Vətən müharibəsi ərəfəsində erməni mətbuatında "fake" xəbərlər Ermənistan Silahlı Qüvvələrinin bölmələrinin Azərbaycan Ordusu üzərində "qələbə"sindən bəhs edən yazılarla başladı. Ermənistan Mərkəzləşdirilmiş Məlumat Mərkəzində Ermənistan Müdafiə Nazirliyinin təmsilçisi Artsrun Ovannisyan sentyabrın 29-da müharibənin 3-cü günü hesabat verərkən Azərbaycan Ordusunda 1900 yaralı, 790 ölü sayı barədə açıqlama verdi. Eyni xəbəri Ermənistan Müdafiə Nazirliyinin artıq keçmiş sözçüsü Şuşan Stepanyan da tirajlayırdı.***

Bu tarixə qədər isə artıq Azərbaycan Respublikasının Müdafiə Nazirliyi cəbhənin Füzuli-Cəbrayıl istiqamətində aparılan hərbi əməliyyat nəticəsində düşmən işğalı altında olan Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərinin işğaldan azad edildiyini, Ağdərə istiqamətində və Murov dağı silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postlarının darmadağın edilərək bir sıra hakim yüksəkliklərin nəzarətə götürülməsini elan etmişdi.

Ermənistan mediasının yaydığı növbəti "fake" xəbər Türkiyəyə məxsus F-16 təyyarəsinin Ermənistana məxsus Su-25 təyyarəsini vurması barədə informasiya oldu. Sentyabrın 29-da yayılan bu yalan xəbər dünya mediasını zəbt etdi. Qarabağdakı seperatçı qurumun "ordu komandirinin müavini" Artur Sarkisyan heç bir fakt ortaya qoymadan Qarabağ səmasında Türkiyəyə məxsus F-16 təyyarəsinin göründüyünü uydurdu, eyni zamanda Azərbaycan Silahlı Qüvvələrinin uğurunun Türkiyənin müdaxiləsi sayəsində baş tutduğunu bəyan etdi. Bir yalan məlumatla iki "fake" xəbər tirajlayan seperatçı qurumun təmsilçisinin dedikləri yenə də Şuşan Stepanyan vasitəsilə dünyaya yayıldı. Bu azmış kimi Türkiyə qırıcısının Gəncədəki aerodromdan qalxdığını bəyan etməklə Gəncə terroruna zəmin yaratmaq istədi. Lakin xəbər çıxan kimi dərhal Azərbaycan Respublikasının Prezidenti bunun yalan olduğunu bəyan etdi, bütün dünyanı erməni mətbuatının növbəti "fake" məlumatına uymamağa çağırdı. Bir müddət sonra isə təyyarə qəzasının pis hava səbəbindən baş verdiyi ortaya çıxdı.

Buna baxmayaraq erməni mediası Azərbaycanın Vətən müharibəsində Türkiyənin iştirakı barədə xəbərlər tirajlamaqda davam edirdi. Ermənistanın Müdafiə Nazirliyi Azərbaycanın Qarabağda hava hücumları üzrə komandanlığı Türkiyəyə verməsi barədə xəbərlərlə məğlubiyyətlərini ört-basdır etməyə çalışırdı. Sentyabrın 30-da verilən bu bəyanat Azərbaycanın Müdafiə Nazirliyinin Qoşunlarımızın zərbələrinə məruz qalan Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taborunun ağır itkilərə məruz qalması, komandanlıqdan təcili kömək istəməsi, köməyə gələn ehtiyat qüvvələrin də aşkar olunaraq atəş zərbəsi ilə məhv edilməsi xəbəri ilə eyni vaxta təsadüf edirdi.

Erməni mətbuatı isə Türkiyənin F-16-ları ilə yanaşı, erməni əsgərinin kabusuna çevrilən "Bayraqdar"dan yazırdı. "Biz çox yaxşı başa düşürük ki, F-16 havada "Bayraqdar"a kömək edir. Digər tərəfdən, Türkiyə sərhədin o biri tərəfində radiotelefonla yardım edir. Bütün bortların nömrələrini, koordinasiyalı şəkildə necə işlədiklərini bilirik. Çox gözəl bilirik ki, Su 25-i 60 km uzaqlıqdan və uyğun hündürlükdən ancaq F-16 görə bilər. Heç bir hava hücumundan müdafiə sistemi həmin vaxt bunu müəyyən edə bilmədi. Su-25 bunu bacarmadı. Bütün bunları beynəlxalq təşkilatlara təqdim edə bilərik" - deyən Ovannisyan Azərbaycan Ordusunun Qarabağ və ətraf rayonlarda keçirdiyi antiterror və sülhməcburetmə əməliyyatlarında uğursuzluğa uğrayan Ermənistanın həm ölkə vətəndaşlarını, həm də beynəlxalq aləmi aldatmağa cəhd edirdi. Elə bu səbəbdəndir ki, erməni mediasında yayılan "fakenyus"ların sayı durmadan artırdı.

"Qarabağ Azərbaycana, Azərbaycan isə Sovet İttifaqına məxsusdur. Ərdoğan niyə Azərbaycanı dəstəkləyir?" başlıqlı analiz tipli yazı isə ermənilərin absurd təfəkkürünün nəticəsi hesab edilə bilər. "Problem ondadır ki, Cənubi Qafqazdakı ermənilər Türkiyənin Şimal, Cənub-Şərq və Şərq yollarındakı sonuncu maneəsidir. Ona görə ki, Türkiyənin imperialist siyasəti Cənubi Qafqaz sərhədlərini də aşır. Gəlin, bu ölkənin Aralıq dənizi, Liviya, Yaxın Şərq, İraq və Suriyadakı siyasətinə nəzər salaq. Qeyd etmək istəyirəm ki, Dağlıq Qarabağ və Ermənistan hazırda sivilizasiya cəbhəsindədir və əgər dünya ictimaiyyəti bu fakta yetərincə diqqət etməsə, Türkiyəni Vyanada qarşılamağı gözləsinlər. Almaniya Ərdoğanın reaksiyasından çəkinərək məsafəni qoruyur, təmkin nümayiş etdirir" (newsarmenia.am).

Döyüş meydanındakı məğlubiyyətləri ilə heç cür barışa bilməyən rəsmi Yerevan informasiya müharibəsində uğur əldə etmək üçün yeganə yolu Türkiyənin Azərbaycana kömək etməsi ilə bağlı yalanlar uydurmaqda görürdü. Ermənistan hokuməti və mediası unudurdu ki, Azərbaycan qarşısında tab gətirməmələri çarəsiz Ermənistanı uçuruma aparır. Bu günlərdə erməni mətbuatı Türkiyə ilə bağlı absurd yalanları ilə gülüş obyektinə çevrilməyə davam edirdi. Həm də özü deyib, özü inanıb, özü gülən obyektə. Beləliklə, yalanların kulminasiyası hesab edilə biləcək "Azərbaycan faktiki olaraq Naxçıvanı itirir" başlıqlı yazıda, erməni mediası yazırdı: "...böyük ehtimalla atəşkəs rejiminin bərpasından sonra türk hərbçiləri qardaş Azərbaycanın təhlükəzsizliyini təmin etmək bəhanəsilə Azərbaycan ərazini tərk etməyəcək. Əslində isə, faktiki olaraq Azərbaycanın Türkiyə tərəfindən işğalı davam etdiriləcək. Bu isə öz növbəsində Azərbaycan ərazisində milli azlıqların, xalq hərəkatı üzvlərinin genişlənməsinə təkan verə bilər".

Növbəti iddialar isə Azərbaycan əsgərləri arasında milli azlıqların daha çox olması barədə verilən açıqlamalar oldu. Müharibədə heç bir uğura nail ola bilməyən düşmən bu cür yalanlarla, Azərbaycanda eyni bayraq altında yaşayan, eyni amal uğrunda mübarizə aparan xalqların arasına nifaq toxumu səpmək istəyirdi. Amma unudurdu ki, monoetnik Ermənistandan fərqli olaraq, Azərbaycanda multikulturalizm ənənələri tarixən inkişaf edib, bu gün də öz inkişafının ən yüksək mərhələsindədir. Və onu da unudurdu ki, cəbhədə öz qanı və canı ilə tarix yazan Azərbaycan əsgəri "Hər şey Vətən üçün!" şüarı ilə Qarabağı azad etmək üçün son döyüşünü ən yaxın zamanda qələbə ilə bitirmək əzmindədir.

Müharibə günlərində erməni mətbuatı Ermənistan Silahlı Qüvvələrinin "uğurlu hücum əməliyyatları" haqqında "dastan" yazmaqda davam edirdi. Azərbaycan Ordusuna ağır zərbə vurulması, hərbçilərimizin geri çəkilməsi, Azərbaycana məxsus hərbi obyektlərə artilleriya zərbələri endirilməsi, ordumuzun böyük itki verməsi və s. formada reallığı əks etdirməyən xəbərlər heç bir fakt olmadan tirajlanırdı.

Dezinformasiyaları ilə gündəm olan Ermənistanın aysor.am xəbər saytı qan xərçəngindən dünyasını dəyişən Türkiyəli əsgəri "Qarabağda döyüşərək həlak olan türk əsgəri" kimi qələmə verirdi. Əslində isə türk mediası sözügedən əsgərin leykomiyadan dünyasını dəyişməsi barədə məlumat yaymışdı. "Anadolu" Agentliyinin İraqda döyüşən və şəhid olan digər türk əsgəri barədə yazdığı xəbəri Ermənistanın Müdafiə Nazirliyinin rəsmisi Ovannisyan "Qarabağda öldürülən digər türk əsgəri" formasında təqdim edirdi. Vəzifədən uzaqlaşdıqdan sonra Ovannisyan həmin statusu silsə də, şəhid əsgərin qohumu məlumatı "Facebook" səhifəsində paylaşaraq, Ermənistan hökumətini sərt tənqid etdi və xəbərin yalan olduğunu bildirdi.

Beləliklə, Türkiyə və Suriyadan olan döyüşçülərin Azərbaycan tərəfdə döyüşməsi ilə bağlı saxta informasiyaları dünyaya car çəkən erməni mediası hər dəfə biabırçı şəkildə uğursuzluğa uğrayırdı. Suriyalı silahlılara Azərbaycan sərhədçilərinin forması geyindirilərək çəkilən qurama video kimi. Ermənistanın müdafiə naziri David Tonoyanın "Facebook" səhifəsində sözügedən terrorçularla görüşdən foto paylaşması isə bu "fake"lərin məhz rəsmi dairələrdən mətbuata ötürülməsi xəbərini təsdiqləyirdi. Cəbhədəki uğursuzluqlarını hər cür saxta informasiyalarla ört-basdır etmək istəyi Ermənistandakı vəziyyətin necə acınacaqlı olmasından xəbər verirdi. Növbəti erməni yalanı siyasi şərhçi, politoloq Kevork Almasyandan gəldi. Suriyada çəkildiyi iddia olunan bir şəkli montaj edərək, şəkildəki divara Azərbaycan bayrağını ələvə edən erməni siyasətçi bunu özünün "Tvitter" hesabında paylaşaraq, onları "Azərbaycanda döyüşən muzdlular" kimi təqdim etdi.

Hələ bu azmış kimi özünü qondarma qurumun "ombudsmanı" hesab edən birisi Azərbaycan hərbçilərinin erməni əsgərlərinin formasını geyinərək döyüşə girmələri barədə absurd bəyanatla çıxış etdi. Fikrini isə onunla əsaslandırdı ki, bununla erməni tərəfini aldatmağa cəhd edən azərbaycanlılar uğur qazanmaq üçün bu yola əl atırlar. Bu bir daha onu sübut edir ki, döyüşdə məğlubiyyətə uğrayan düşmən uğursuzluğunu ört-basdır etmək üçün hər cür yalana əl atırdı.

Sentyabrın 30-da Qarabağdakı erməni terrorçularının başçısı Araik Arutyunyan: "muzdlular heç vaxt heç kimə xeyir gətirməyib. Bunu Azərbaycan xalqı da bilməlidir. Biz hələ muzdluların Azərbaycan xalqına hansı problemlər yaradacağının şahidi olacağıq" kimi gülünc bəyanatla mətbuatda çıxış etdi.

"Fake" xəbərləri, dezinformasiyaları ilə öndə gedən Ermənistan mətbuatı Azərbaycanı dezinformasiya yaymaqda ittihamdan da çəkinmirdi. Daha bir "fake" xəbər guya Azərbaycan tərəfinin erməni əsirlərini güllələməsi ilə bağlı oldu. "Azərbaycanlı hərbçilər onlara təslim olan erməniləri güllələdi" - deyə dünyaya car çəkən ermənilər xəbərin altında yaydıqları videodaca uğursuzluğa uğradılar. İki nəfərin əllərini qaldıraraq hərbi geyimdə olan şəxslərin əmrini yerinə yetirdiyi əks olunan kadrlarda hərbçilərin qollarında Ermənistana məxsus bayrağı silməyi unudan ermənilər yenə də özlərini ifşa etdilər.

Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan dəfələrlə Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin Ermənistan ərazisini atəşə tutması barədə informasiyalar yaysa da, fakt əvəzinə növbəti terrorlarını ört-basdır etmək niyyətlərini ortaya qoyurdu. "Azərbaycanın Müdafiə Nazirliyinin Ermənistanın Silahlı Qüvvələrinin Daşkəsəni atəşə tutması növbəti dezinformasiyadır. Sərt cavabımızı gözləyin" - deyən Şuşan Stepanyan bununla Gəncə terrorunun anonsunu verirdi. Növbəti siqnal isə yenə də erməni quldurlarının rəhbərindən gəlirdi. Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda 9 yaşlı uşağı öldürməsi barədə saxta informasiyanı yaymaq Gəncədə, Tərtərdə, Bərdədə törədiləcək növbəti qətllər üçün zəmin yaratmaq məqsədi daşıyırdı. Həm də yalan informasiyalarını erməni terrorunun qurbanı olan Zəhranın dəfn merasimindəki fotoşəkilləri ağ yalan şəklində, öz çirkin məqsədlərinə uyğun formada yaymaqla. Ermənistan mediasının Gəncə, Bərdə terroruna hazırladığı zəmin bununla da bitmirdi. Terrorçu dövlətin nümayəndələri hərbi hissələrin yaxınlığında yaşayanlara oradan uzaqlaşmaqla bağlı "xəbərdarlıqlar" da edirdilər.

Bərdə terrorundan sonra isə erməni mətbuatı "Ermənistanın Müdafiə Nazirliyi: Azərbaycanın Bərdənin raketlə vurulması xəbəri tamamilə yalandır" başlıqlı yazılar yayımlamağa başladı.

Bundan əvvəl isə ermənilər Mingəçeviri vurmaları ilə bağlı xəbəri təkzib etmişdilər. Ermənistanın Müdafiə Nazirliyi rəsmi şəkildə Mingəçevirin vurulması xəbərini saxta xəbər adlandırırdı. "Ermənistan Mingəçevirə raket ata bilməzdi. İtkini və məğlubiyyətini ört-basdır etmək istəyən Azərbaycan bu yolla diqqəti yayındırmağa cəhd edir" məzmunlu bəyanatla Şuşan Stepanyan özlərinə haqq qazandırmaq, eyni zamanda cəmiyyəti çaşdırmaq istəyirdi. Çirkin əməlləri ilə öyünən ermənilər "Yüz minlərlə azərbaycanlı şəhərlərdən qaçaraq, arxa cəbhənin dərinliklərinə çəkilir..." başlıqlı yazı ilə gündəmə gəlməyə cəhd edirdilər. "Belə bir məlumat var ki, Artsax ordusunun dünənki raket zərbəsindən sonra Azərbaycanın müxtəlif şəhərlərinin yüz minlərlə əhalisi arxa cəbhənin dərinliklərinə, Bakı və digər şəhərlərə qaçır. Yüksək vətəndaş ruhu nümayiş etdirdiyi üçün Azərbaycan xalqına təşəkkür edirik. Həqiqətən də tələsmək lazımdır".

"Azərbaycan mediasının Cəbrayılın işğaldan azad olunması ilə bağlı yaydığı məlumat yalandır", "Ermənistan Madagizi itirməyib" və s. kimi başlıqlı yazılar erməni mediasının "fake" xəbərləri sırasında mütəmadi olaraq yer alır. İşğaldan azad edilən Azərbaycan əraziləri barədə xəbərləri hər dəfə yalan adlandıran Ermənistanın Müdafiə Nazirliyi əslində özünü gülünc vəziyyətə salırdı: "Onlar öz, daha sonra isə bizim cəmiyyətimizə psixoloji təsir məqsədilə cəbhəyanı ərazilərdəki yaşayış məntəqələrinə daxil olur, müxtəlif binalarda yerləşdirdikləri bayraqlar fonunda şəkil çəkdirib paylaşırlar". Bu tipli saxta və gülünc xəbərlər erməni mətbuatında artıq adi hala çevrilirdi.

*(Ardı 11-ci səhifədə)*

Erməni mediası Azərbaycanın Qarabağda fosforlu bombalardan istifadə etməsi ilə bağlı yalan məlumatları durmadan tirajlayırdı. Lakin bütün hallarda düşmən tərəfin "Azərbaycan Silahlı Qüvvələri Cenevrə Konvensiyalarını pozaraq qadağan olunmuş silahlardan istifadə edir", "Azərbaycan humanitar fəlakətdən başqa, həm də Artsaxın heyvanlar və bitki aləminə əhəmiyyətli zərər vurmaqla tək humanitar yox, həm də ekoloji fəlakətin yaranmasına səbəb olur" başlıqlı yazılarla öz əməllərini ört-basdır etmək cəhdi də puça çıxırdı. Erməni tərəfinin digər uydurmaları kimi bu yalanlarının da üstü açılırdı. Həm də beynəlxalq media nümayəndələri vasitəsilə. Azərbaycan meşələrini yandıran, özləri ilə apara bilmədikləri heyvanları öldürərək daxili orqanlarını ətrafa səpələyən ermənilər xarici media nümayəndələrini belə dilə gətirirdi. Ermənistanın ekoloji terroru bütün dünyaya həm də öz mediası vasitəsilə yayılırdı.

Erməni mətbuatının Qarabağla bağlı "fake" xəbərləri Şuşanın itirilməsi ilə paralel davam edirdi. Noyabrın 8-də Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Ovannisyan Azərbaycan Prezidenti İlham Əliyevin Şuşanın Azərbaycan hərbçilərinin nəzarəti altına keçməsi xəbərini "Şuşada döyüşlər davam edir. Gözləyək və qoşunlarımıza inanaq. Bu, növbəti falsifikasiyadır. Azərbaycan Silahlı Qüvvələri nəyin bahasına olursa-olsun 9 noyabr Bayraq günü münasibətilə Şuşaya daxil olaraq, bayrağı şəhərə sancmağa çalışır" bəyanatı ilə ört-basdır etməyə çalışırdı. Yerli mətbuat durmadan Ermənistan müdafiə nazirinin müavininin köməkçisi Qrişa Ağacanyanın "Şuşa möhkəmdir, möhkəm də olacaq. Ordumuza eşq olsun!" kimi bəyanatlarını yayırdı. Bu azmış kimi, Azərbaycan hərbçilərinin Şuşanı tam olaraq nəzarətə götürməsinin yalan olduğunu Qarabağda olan hərbi jurnalist Semyon Peqov da təkzib edirdi. O Peqov ki Azərbaycan onun barəsində axtarış elan etmişdi. Hətta Rusiya mediası belə Ermənistan mətbuatına əsasən Ermənistanda Azərbaycan tərəfinin Şuşanı nəzarətə götürməsi və şəhər məscidinin minarəsinə Azərbaycan bayrağı sancılması barədə xəbərləri yalan adlandırırdı.

Müharibə bitəndən sonra da erməni mətbuatının "fake"ləri bitmədi. Bu dəfə Azərbaycanla yanaşı, rəsmi Yerevan da hədəfə alındı. Erməni xalqı "fake"lər ölkəsində yaşadığını, nəhayət ki, anladı. Aysor.am. saytının yazdığına görə, noyabrın 28-də Paşinyanla görüş tələb edən hərbçi anaları baş nazirin "fake" ordusunu üzərlərinə yönəltməsi ilə bağlı etirazlarını eyniadlı məqalə ilə yayımladı.

Həqiqi hərbi xidmətdə olan əsgər anası Lusine Aroyan jurnalistlərlə söhbətində bildirib ki, Paşinyan "fakelər ordusunu" onların üzərinə yönəldib: "Bizə - bu müharibə zamanı bu qədər əzab yaşayan əsgərlərin valideynlərinə qarşı. Onların bizim ünvanımıza yazmadığı qalmayıb".

İttihamlara tab gətirə bilməyən Ermənistanın baş naziri isə çıxış yolunu qarşılıqlı ittihamlarda gördü. Noyabrın 29-da televiziya ilə çıxışında hər zaman Şuşanı geri qaytarmaq variantının əleyhinə olduğunu bildirdi. Çıxışdan bir parçanı olduğu kimi təqdim edirik: "Oktyabrın 19-da Araik Arutunyan zəng edərək, müharibəni dayandırmağın vacibliyini dedi. Bildirdi ki, bu təkcə onun yox, Qukasyan, Bako Saakyan, Serj Sarkisyan və Levon Ter-Petrosyanın da fikiridir. Mən Rusiya Prezidentinə zəng elədim, o da dedi ki, ölkəsinin irəli sürdüyü təkliflərin məntiqinə uyğun olaraq, bu addımı atmağa cəhd etmək lazımdır. Söhbət status məsələsinin təxirə salınması, rayonların qaytarılması və rus sülhməramlılarının yerləşdirilməsindən gedir. Dedim ki, sülhməramlılar keçmiş DQMV-nin sərhədləri və Laçın dəhlizi boyunca yerləşdiriləlidir. O da həmrəy olduğunu bildirdi və biz razılaşdıq. Artsaxın prezidentinə zəng eləyərək dedim ki, yuxarıda qeyd olunan variant daha əlverişlidir. Onun da razılığını aldım. Daha sonra parlamentdə təmsil olunmayan siyasi qüvvələri dəvət edərək, qərarım barədə onları məlumatlandırdım. Çoxunun reaksiyasından gördüm ki, məsələ onların ürəyincə deyil, bəziləri isə toplantıdan sonra sosial şəbəkələrdə yazdılar ki, xalqı mübarizədən çəkindirənlər satqındır. Elə həmin gün mən Təhlükəsizlik Şurasının parlament fraksiyalarının nümayəndələrinin də iştirak etdiyi iclasını çağırdım. Görüşdə Ermənistanın prezidenti və patriarx da iştirak edirdi. Müxalifətçilər təklifi həvəssiz qəbul etdilər. Mənim ictimaiyyətə hər hansı bəyanat verməyim Azərbaycanın bu təklifdən imtinası və nəticədə müqavimət sistemimizin bütövlükdə çökməsi demək olacaqdı. Mən yenidən Rusiya Prezidentinə zəng elədim, dedim ki, razıyam. O da cavab verdi ki, səhərədək Əliyevlə danışıb, mənə zəng edəcək. Növbəti gün Bako Saakyan və Arkadi Qukasyan mənimlə görüşdülər və dedilər ki, status dəqiqləşdirilmədən və ya dəqiqləşmə mexanizmi hazırlanmadan razılığa gəlməyəcəklər. Onlar bunu Koçaryan, Sarkisyan və Ter-Petrosyanın adından dedilər. Bunun isə artıq əhəmiyyəti yox idi. Mən qərarımı vermişdim və sonuna qədər gedəcəkdim..."

44 günlük müharibə dövründə də, ondan sonrakı zamanda da nə rəsmi Yerevan yalanlarına ara verdi, nə də erməni mətbuatı. Özləri dedi, özləri də yalanladı. Noyabrın 29-da "Ermənistanın səsi" qəzetinin "Paşinyanın Moskva səfəri: 4 "N" birində" başlıqlı yazısında deyildiyi kimi "fakelər ölkəsi"nə çevrilən Ermənistan... "Bu gün Nikol Paşinyanın erməni xalqı və Ermənistan dövləti adından hər hansı danışıqlar aparmağa heç bir haqqı yoxdur... Bu, Ermənistanı "fakelər ölkəsi"nə çevirən Nikolizmdən əlavə dividentlər qazanmağa ümid edənlərin, nəticədə isə özləri "fake"ə çevrilənlərin hesablaşmalı olduqları bir faktdır..." Nəhayət ki, erməni mətbuatı FAKElə FAKTı fərqləndirməyi bacardı.

Onu da vurğulamaq lazımdır ki, Ermənistan mediasında Qarabağ münaqişəsi 1-ci Qarabağ müharibəsi dövründə də birtərəfli işıqlandırılıb. Həmin yazılarda da Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi barədə məlumatlar əsasən Azərbaycanın danışıqlar prosesində iştirakdan imtina etməsi, Qarabağa müstəqillik verilməsi, Azərbaycan əsgərlərinin atəşkəs rejiminin pozması və s. olub. Ermənistan Xarici İşlər Nazirliyinin rəsmi saytında Qarabağın tarixən Ermənistanın bir hissəsi olduğu bildirilir və Qarabağın Azərbaycanın daxilində gələcəyinin olmadığı və qərar nə olursa olsun, bu ölkənin iradəsindən qaynaqlandığı vurğulanır: "Qarabağ xalqı öz müqəddəratını özü təyinetmə hüququna malikdir. Azərbaycanın Qarabağa hüquqi, siyasi və ya mənəvi iddiaları üçün heç bir əsası yoxdur".

Ermənistan xarici işlər naziri Zohrab Mnatsakanyann 9 may 2019-cu il tarixində "Radio Azatutyun"dan olan jurnalistlə söhbəti də eyni məzmuna malik olub: "Ermənistan Dağlıq Qarabağın təhlükəsizliyinin yeganə qarantı idi və olaraq qalır. Ermənistan və Artsax arasında kifayət qədər formalaşmış, dərin bir sistemli bağlılıq var. Bizim üçün, bütün ermənilər üçün ən vacib vəzifə Qarabağdakı 150 min soydaşımızın təhlükəsizliyidir. Bu qarant funksiyasını təmin etmək üçün bir çox yolumuz və vasitəmiz var və bu işi tamamlayacağıq və yeni müxtəlif vasitələrlə gücləndirəcəyik. Bu davamlı bir prosesdir".

Həmin illərdə Ermənistanın "Daşnaktsutyun"un "Hay Dat" ofisi və siyasi məsələlər şöbəsinin müdiri Kiro Manoyan, məşhur erməni saytı "Arm.info" saytına verdiyi müsahibədə Ermənistanla Qarabağ arasındakı danışıqların Azərbaycan üçün sarı vərəqə olacağını bildirib. "Ermənistan-Artsax hərbi-siyasi razılaşması olacaq. Azərbaycan üçün isə sarı vərəqə olacaq. Bənzər bir razılaşma imzalayaraq Yerevan və Stepanakert Bakıya Artsaxla bağlı danışıqlar prosesini öz şıltaqlıqları əsiriyində daimi olaraq aparmaq mümkün olmadığını açıq şəkildə bildirəcəklər. Belə bir müqavilənin imzalanması zəruridir, çünki bu sənəd rəsmiləşdiriləcək və mövcud hərbi-siyasi əməkdaşlıq nöqtələrinə hüquqi baza yaradacaqdır. Bu müqavilə bir çox sualları cavablandıracaq. Məsələn, Ermənistanın baş naziri danışıqlarda Artsax xalqının maraqlarını təmsil etmək məsələsində öz qanunsuzluğunu bir daha vurğulamaq məcburiyyətində qalmayacaq. Nəhayət, İrəvanın Ermənistanın Artsaxın təhlükəsizliyinin qarantı olduğu barədə təkrarladığı bəyanatların hüquqi əsası qoyulacaq".

Erməni KİV-in son xəbərlərindən biri "Sputnik" xəbər agentliyinin erməni bölməsində "Qarabağ sülh danışıqları ilə müntəzəm olaraq işləmək - Mnatsakanyan" başlığı ilə yayımlanıb. Ermənistanın xarici işlər naziri Zohrab Mnatsakanyan Nikol Paşinyan və Bako Saakyanın açıqlamalarını şərh edərkən, 6 iyun 2019-cu il tarixli bu məqalədə belə yazılıb: "Ermənistan və Qarabağ səlahiyyətliləri danışıqlar prosesində səmərəli əməkdaşlıq edirlər. 5 iyun tarixində Ermənistanın baş naziri Nikol Paşinyan hakimiyyətə gəlməzdən əvvəl Qarabağ rəhbərliyinin danışıqlar masasında nələrin müzakirə olunduğunu bilmədiyini və münaqişənin həlli ilə bağlı sənədlərlə tanış olmadığını bildirdi. Ermənistan baş nazirinin zəmanətinə görə, danışıqlar paketini Qarabağ rəhbərliyinə təhvil verən o idi. Sonda bir gün əvvəl tanınmayan Dağlıq Qarabağ Respublikasının prezidenti Bako Saakyan, Ermənistanın baş naziri Nikol Paşinyanın açıqlamasına reaksiya verdi". "Artsaxpress" agentliyinə verdiyi müsahibədə Bako Saakyan Ermənistan rəhbərliyinin əvvəllər də Qarabağ rəhbərliyini həll prosesindəki bütün yeni inkişaflardan xəbərdar etdiyini bildirib - həm Azərbaycanla danışıqlardan əvvəl, həm də sonra müzakirə olunan məsələlər barədə onlara məlumat verildiyini vurğulayıb.

Göründüyü kimi, Qarabağ münaqişəsi ilə bağlı xəbərlərin əksəriyyəti "Sputnik" kanalında yayımlanıb. Burada son məlumatlardan biri "Azərbaycan Qarabağdakı erməni mövqelərini minaatan və qumbaraatanla atəşə tutdu" başlığı ilə yayımlanıb. Azərbaycan silahlı qüvvələrinin iyunun 2-dən 8-dək Qarabağ münaqişəsi zonasında təmas xəttindəki atəşkəs rejimini guya təxminən 250 dəfə pozduğundan bəhs olunub.

Ermənilər yalnız ənənəvi mediada deyil, həm də sosial mediada, fərqli "YouTube" kanallarında tez-tez Azərbaycan tərəfinin mülki şəxsləri öldürməsi barədə saxta məlumatlar vermişdirlər.

Tanınmış xəbər portalı "EurAsia Daily" isə yazırdı: "Ermənistan baş naziri Nikol Paşinyan bu gün, aprelin 2-də İrəvandakı Erablur hərbi panteonunu ziyarət etdi və 2016-cı ilin dördgünlük müharibəsində həlak olanların xatirəsini ehtiramla yad etdi. Aprel müharibəsinin 4 illiyi ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müdafiə Nazirliyinin xüsusi təyinatlı qüvvələrinin N saylı hərbi hissəsini ziyarət etdi. Erməni tərəfinin verdiyi məlumata görə, Azərbaycan Qarabağ münaqişəsi ilə bağlı 12 may 1994-cü il tarixli atəşkəs razılaşmasını kobud şəkildə pozaraq, bütün xətt boyu genişmiqyaslı hücuma başladı. Bu və ya digər şəkildə dörd il əvvəlki silahlı qarşıdurma, hər iki tərəfin ciddi itki verməsinə səbəb olan Dağlıq Qarabağ ətrafında ən geniş miqyaslı hərbi əməliyyatların başlanması idi. Ən gərgin döyüşlər qoşunların təmas xəttinin cənub (Hadrut) və şimal-şərq (Martakert) istiqamətlərində aparılırdı. Aprelin 4-dən 5-nə keçən gecə çoxsaylı raketatanlardan Azərbaycan silahlı qüvvələri cəbhəsinin cənub sektorunda istifadə edildi. Rusiyanın vasitəçiliyi ilə tərəflərin əldə etdikləri şifahi razılığa görə, 5 aprel səhəri 1994-cü il atəşkəs rejimi bərpa edildi".

XX əsrin 80-ci illərinin sonu 90-cı illərin əvvəllərində ermənilərin türklərə, o cümlədən azərbaycanlılara qarşı apardığı informasiya müharibəsi strategiyası müəyyən ideoloji taktikalarla həyata keçirilir. Hər şeydən əvvəl ermənilərin azərbaycanlılara qarşı informasiya müharibəsində ilk baxışdan əhəmiyyətsiz görünən xırda məsələlərdən istifadə olunur. Məsələn, onlar azərbaycanlıları "vəhşi", "köçəri", erməniləri isə "qədim tarixə malik", "mədəni" xalq kimi dünya ictimaiyyətinə çatdırmaq üçün informasiya mübarizəsinin bütün imkanlarından istifadə edib və bundan sonra bu iki xalqın birlikdə yaşaya bilməyəcəkləri fikrini qlobal informasiya məkanında ictimai şüura yeritməyə çalışıblar. Tarix boyu uydurduqları yalanları utanmadan, çəkinmədən bütün dünyaya yaymağı çox yaxşı bacarıblar. Yalanları ayaq tutub yeridikcə isə iştahaları və həyasızlıqları daha da artıb, öz yalanlarına özləri də inanıblar. Erməni xalqının tarixi barədə uzun-uzadı yazsalar da, "Böyük Ermənistan", uydurma erməni dövləti barədə ağız dolusu danışsalar da, hələ heç bir erməni alimi bu uydurma dövlətin sərhədləri barədə dəqiq xəritə ortaya qoya bilməyib.

Sonda onu qeyd etmək lazımdır ki, əsrlərdir ermənilərin dünyaya sırıdıqları fake xəbərlər 44 günlük Vətən müharibəsində yerlə-yeksan oldu. Azərbaycan istər hərbi, istər diplomatik, istərsə də informasiya cəbhəsində işğalçı Ermənistan üzərində parlaq qələbə qazandı. Ali Baş Komandan, Prezident İlham Əliyevin sözləri ilə desək, Böyük Ermənistan xülyası gorbagor oldu, cəhənnəmə getdi...

***Güney Mahmudova***
*Jurnalistika fakültəsi, "Jurnalistika" ETL-nin elmi işçisi*

# Sadə İNSAN, böyük MÜƏLLİM



## Azərbaycanda informatika elminin inkişafında xüsusi xidmətləri olan alim - Ramin Mahmudzadə

***Bir gün dünyaya gələn insan bir gün də onu tərk edir. Bu iki gün arasındakı ömür payında onun gördüyü işlər, əməllər, dediyi sözlər, düşündüyü fikirlər, iştirak etdiyi hadisələr insanların xatirələrində qalır. Elə insanlar vardır ki, onlar haqqındakı xatirələr adi bir şey kimi ötüb keçir. Elə insanlar da vardır ki, onlar haqqında xatirələr insanların qəlblərinə təsir edir və gözü yaşlarına səbəb olur.***

*Biz avqust ayının 8-də gözəl bir insanı itirdik. Ramin Mahmudzadə həyatını bitirdi və əbədiyyətə qovuşdu. Bu kədərli hadisədən mütəəssir olan insanlar onu son mənzilə yola saldılar. Coşqun, gözəl və yaradıcı bir həyata son qoyuldu...*

Ramin Mahmudzadə 1935-ci il avqustun 31-də Bakı şəhərində görkəmli ədəbiyyatçı Əli Nazimin ailəsində dünyaya gəlmişdi. O, 1956-cı ildə Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1958-ci ildə isə təhsilini Leninqrad Dövlət Universitetində davam etdirmişdir.

Təhsilini bitirdikdən sonra əmək fəaliyyətini Azərbaycan Dövlət Universitetində davam etdirmişdir. Ramin Mahmudzadə BDU-nun ən qocaman müəllimlərindən biri idi. Onun 60 ildən yuxarı pedaqoji stajı var idi. Sözün əsl mənasında o, gözəl insan və böyük müəllim idi. Ona müəllimlərin müəllimi desək, daha düzgün olardı.

XX əsrin ikinci yarısından yeni yaranan kompüter elmləri (informatika) Azərbaycanda da sürətlə öyrənilməyə və inkişaf etdirilməyə başladı. Ramin müəllim bu istiqamətin ölkəmizdə inkişaf etdirilməsində ən böyük rol oynayan insanlardan biridir. Onu Azərbaycanın ilk proqramçısı adlandırmaq olar. Ramin müəllim kompüter elmlərini dərindən başa düşən, onu ürəkdən sevən, çox böyük həvəslə öyrənən və onu öz tələbələrinə böyük qayğıkeşliklə öyrədən bir şəxs idi. Hal-hazırda Azərbaycanın ali və orta məktəblərində onun yazdığı və hazırladığı kitablarla dərs keçilir. Onun düşüncələri və bu elmə olan böyük məhəbbəti sanki, bu kitablara hopmuşdur. Bu böyük məhəbbətin qığılcımları Azərbaycan xalqının yeni nəsillərinə kompüter elmlərini öyrənməyə ilham verəcəkdir.

Ramin müəllim bizim fikrimizdə və qəlbimizdə ağsaçlı, gülərüz, yüksək enerjili, daim sevdiyi elmi öyrənməyə və öyrətməyə çalışan çox qayğıkeş bir insan kimi qalacaqdır. İnanmaq olmur ki, bu gözəl insan daha kafedraya gəlməyəcək, özünün yumorlu, ağıllı və müdrik kəlmələri ilə heç kimin qəlbini daha sevindirməyəcək. Biz onu görəndə çox sevinirdik. Yaxınlaşıb hal-əhval tutur və kompüter elmlərindəki yeniliklər barədə fikir mübadilələri edərdik. Onun çox güclü hafizəsi var idi, bütün yenilikləri daim izləyər və öz facebook səhifəsində yazardı.

Hamı bilir ki, kompüter elmləri ən sürətlə inkişaf edən və yeniləşən elmdir. Ramin Mahmudzadə bu elmin inkişaf dinamikasını tutardı, yenilikləri birinci öyrənib digər müəllimlərə də öyrənməyi tövsiyə edərdi. Paskal, C, C++ , Java, CA, Python və s. proqramlaşdırma dillərini böyük həvəslə Azərbaycan gənclərinə öyrədərdi.

Onu xarakterizə edən ən əsas cəhətlərdən biri sadəliyi idi. Heç vaxt özünü dartmaz, böyüklə böyük, kiçiklə kiçik kimi danışardı. Tələbələrin çox böyük dostu idi. Hətta uzun illər bundan əvvəl dərs dediyi tələbələr də onunla əlaqə saxlayar və həmişə onu məhəbbət və hörmətlə xatırlayardılar. O, tələbələrə mehribançılıq göstərir, onlarla çox yaxın idi. Vaxt vardı o, tələbələrlə turist səfərlərinə gedərdi, onları olimpiadalara aparardı, onlarla bir masada duz-çörək kəsərdi.

Sadəliyinə görə mən onu dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə ilə müqayisə edə bilərəm. Mən Azərbaycanın fəxri olan bu böyük alimlə şəxsən görüşmüş, söhbətlər etmiş və uzun müddət məktublaşmışam. Həm Lütfi Zadə, həm də Mahmudzadə öz ömürlərini kompüter elmlərinin inkişaf etdirilməsinə və öyrənilməsinə sərf etmişlər. Hər iki alim azərbaycanlıdır və öz dünya baxışlarına görə çox sadə insanlar olmuşlar. Lütfi Zadə 97, Mahmudzadə isə 87 yaşında vəfat etmişdir. Lütfi Zadə çox sevdiyi həyat yoldaşı Fey xanımın ölümündən sonra heç bir il keçməmiş dünyasını dəyişdi. Mahmudzadə də çox sevdiyi həyat yoldaşı Şəfiqə xanımın ölümündən heç bir il ötməmiş vəfat etdi. Hər iki azərbaycanlı alim peşəsini, öz elm sahəsini həddən artıq sevirdi. Hər ikisinin soyadı Zadə sözü ilə bitir, hər ikisi elmdə, təhsildə insanların qəlbində dərin izlər qoyaraq dünyanı tərk etdi.

Ramin müəllimin güclü yumor hissi vardı. Biz onun xətrini çox istəyirdik, daim maraqlı söhbətlər edirdik. O, öz duzlu zarafatlarından qalmazdı. Təhsil prosesində də tələbələri gülə-gülə, zarafatyana maraqlandıraraq ciddi biliklərə doğru aparırdı.

Bu əvəzsiz insan həm müəllimlərə, həm də tələbələrə atalıq qayğısı göstərirdi. Hər hansı bir çətinlik olanda hamı onun yanına gedirdi. Tbilisi şəhərində keçirilən dünya olimpiadasına gedən tələbələrin cibinə öz şəxsi vəsaitindən pul qoyur və onlara dəyərli məsləhətlər verirdi.

Göründüyü kimi, bu böyük insan həyatı boyu bütün varlığı ilə Azərbaycan elminə və təhsilinə xidmət etmişdir. Biz onunla elmi seminarlar keçirmiş, bir sıra innovativ layihələrə birlikdə rəhbərlik etmişik. Qəlbi saf, ürəyiaçıq və xoşrəftar olan belə bir insanla həmkar olmağı özümüz üçün böyük xoşbəxtlik hesab edirik.

Bu qədim dünyaya milyonlarla insanlar gəlir və gedir. Ramin Mahmudzadənin də ömrü bir qığılcım kimi yandı və söndü.

Ömür bir qığılcım
Həyat bir andır
Çalış qığılcımla
Çıraqlar yandır.

Ramin müəllimin qığılcımları artıq minlərlə azərbaycanlı gəncin ürəyində əbədi şölənəcək çıraqlar yandırmışdır. Bu çıraqlar Azərbaycan xalqını böyük və işıqlı gələcəyə aparacaqdır.

Bakı Dövlət Universitetinin tarixinə Ramin Mahmudzadənin adı qızıl hərflərlə əbədi həkk olunacaqdır.

Bir də görürsən ki, açılan solur
Düşünən bir beyin bir torpaq olur.
Bir yandan boşalır, bir yandan dolur.
Sirrini açmayır sirdaşa dünya.
Biz gəldi gedərik, sən yaşa dünya!!

Məşhur şairimiz Səməd Vurğunun bu ölməz sözləri heç bir vaxt öz mənasını itirmir.

Bakı Dövlət Universitetində yüzlərlə müəllim dərs deyib və bundan sonra da dərs deyəcəkdir. Lakin Ramin Mahmudzadə kimi dəyərli alimlərimiz haqqındakı xatirələr əbədi olaraq yaşayacaqdır. Belə gözəl insanlar dünyaya çox az gəlir. Azərbaycan xalqı onların qədrini bilir, dəyər verir və xatirələrini daim əziz tutur.

**_Fuad QURBANOV,_**
*Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin baş müəllimi*

# "Sənəd və informasiya menecmenti üzrə kadr hazırlığı: üstünlükləri, perspektivləri" mövzusunda Beynəlxalq elmi konfrans keçiriləcək

***2022-ci ilin 14-15 dekabr tarixlərində Bakı Dövlət Universitetində "Sənəd və informasiya menecmenti üzrə kadr hazırlığı: üstünlükləri, perspektivləri" mövzusunda Beynəlxalq elmi konfrans keçiriləcək.*** Konfrans sənəd və informasiya menecmenti üzrə kadr hazırlığının müasir durumu və perspektivləri üzrə dünyanın müxtəlif ölkələrindən olan tədqiqatçıları bir araya gətirməklə əldə edilmiş ən mühüm nəticələri müzakirə etməyə, yeni prioritet istiqamətləri müəyyənləşdirməyə şərait yaradacaq, təhsil və elmi tədqiqatların əlaqələndirilməsinə, bu sahədəki bilik və bacarıqların optimallaşdırılmasına, həmçinin elmi əlaqələrin genişləndirilməsinə xidmət edəcək.

Türkiyə, Rusiya, Moldova və digər ölkələrin ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarından olan tədqiqatçıların iştirakı ilə keçiriləcək konfransda sənəd və informasiya menecmenti, informasiya logistikası, kitabşünaslıq, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, redaktəetmə, kitab sənayesi, müəlliflik hüququ və əlaqəli hüquqlar kimi sahələr üzrə məruzələr dinləniləcək, müzakirələr aparılacaq. Konfransda müxtəlif ölkələrdən qatılacaq məruzəçilərin bu sahənin problemləri və alınmış ən son nəticələr üzrə çıxışları nəzərdə tutulur.

# BDU alimi xərçəngin diaqnostikasında tüpürcək biomarkerlərindən istifadəyə dair tədqiqat aparıb



***Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllif olduğu "Xərçəngdə tüpürcək biomarkerləri" ("Salivary biomarkers in cancer") adlı elmi iş "Web of Science" elmmetrik bazasına daxil olan (IF: 5.394) "Advances in Clinical Chemistry" jurnalında fəsil kimi çap olunub.*** Qeyd olunan elmi işdə xərçəng xəstəliyinin diaqnostikası üçün tüpürcək biomarkerlərinin istifadəsindən bəhs edilir. Tüpürcək kliniki əhəmiyyət kəsb edən biomarkerləri aşkarlamaq üçün istifadə oluna və asanlıqla əldə edilə bilən, qeyri-invaziv və ucuz qiymətə olan nümunədir. Proteomika, transkriptomika, metabolomika və mikrobiomikanı əhatə edən tüpürcək əsaslı "omiks" texnologiyaları sürətlə inkişaf edib, maye biopsiyası və nanoelmdə diaqnostik məqsədlə tətbiq oluna bilər. Analitik üsullardakı irəliləyişlər tüpürcəyin yalnız ağız boşluğundan bütün fizioloji sistemə və müvafiq olaraq fərdiləşdirilmiş təbabətə qədər tətbiq sahəsini artırıb. Bütün bunları nəzərə alaraq, qeyd olunan elmi işdə tüpürcəkdə biomarkerləri müəyyən etmək üçün analitik yanaşmalardakı son nailiyyətlər və onların xərçəngə diqqət yetirməklə diaqnostik, proqnoz və terapevtik markerlər kimi potensial istifadəsi araşdırılıb.

# BDU-da kvant elminin və texnologiyalarının müasir trendlərinə həsr olunmuş Beynəlxalq yay məktəbi davam edir

***Bakı Dövlət Universiteti və "VolkswagenStiftung" Fondunun birgə təşkilatçılığı ilə "Kvant elminin və texnologiyasının müasir trendləri: kvant materiallarından kvant informasiyasına qədər" mövzusunda Beynəlxalq yay məktəbi davam edir.***

Yay məktəbinin ikinci günündə Özbəkistanın Turin Politexnik Universitetinin professoru Davron Matrasulovun "Artificial atoms in graphene as "table top" facility for testing of ultrarelativistic physics", Fizika İnstitutunun professoru Dünyamalı Məmmədovun "Optical properties of $GeSb_2Te_2$ compound in the mid-IR region of the reflection spectrum", Almaniyanın Dortmund Texniki Universitetinin professoru Dieter Suterin "Quantum control of electronic and nuclear spin qubits: maximising fidelity and speed with minimal resources", İtaliyanın Abdus Salam adına Beynəlxalq Nəzəri Fizika Mərkəzinin professoru Rosario Fazionun "Introduction to time crystals", BDU-nun dosenti Şahmərdan Əmirovun "Metamaterials - perspective optical frequency converters" mövzularında məruzələri dinlənilib.



Yay məktəbinin III günü iştirakçılar Bakının tarixi yerləri ilə tanış oldular. Xarici iştirakçılar Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edib, Qoşa qala qapısı, Sabirin heykəli, İsmailiyyə binası, Qız Qalası, Şirvanşahlar sarayı, Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

Beynəlxalq Yay Məktəbinin IV günü Portuqaliyanın Lissabon Universitetinin professoru Yasser Omar "Introduction to quantum information and computation", Almaniyanın Düsseldorf Universitetinin professoru Dagmar Bruss "On quantum resource theories", Fizika İnstitutunun elmi işçisi Elvin Əlizadə "Plasmon resonance in the ir spectrum on $Bi_2Se_3$ and $Sb_2Te_3$ 3D topological insulators", Ankara Universitetinin professoru Ali Gencer "An overview on quantum cooling for potential quantum technologies down to mk range", Özbəkistanın Yeoju Daşkənd Texniki İnstitutunun professoru Jambul Yusupov "Tunable quantum transport in networks: from transparent to ptsymmetric quantum graphs", Gürcüstanın İlia Dövlət Universitetinin professor Şota Garuçava "Unconventional ordered phases in the ground state phase diagram of the half-filled t-t' ionic hubbard chain" mövzularında məruzə ediblər.

Qeyd edək ki, Yay Məktəbində ümumilikdə 40-dək məruzə dinləniləcək. Sonda iştirakçıların əldə etdiyi biliklərin qiymətləndirilməsi məqsədilə müsabiqə keçiriləcək. Məktəbi uğurla bitirən iştirakçılara sertifikatlar veriləcək.

# Biologiya fakültəsinin əməkdaşları Qızılağac və Hirkan Milli Parkında tədqiqat aparıb





***Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin əməkdaşları Qızılağac və Hirkan Milli Parkında tədqiqat aparıblar.***

Tədqiqat zamanı son illər ətraf mühitdə baş verən təbii və antropogen dəyişikliklər, qlobal istiləşmə probleminin biomüxtəlifliyə təsiri və nəticədə yaranmış hazırkı vəziyyət müşahidə olunub. Qızılağac Milli Parkında Kiçik Qızılağac körfəzini Böyük Qızılağac körfəzi ilə birləşdirən Balıqötürən, Qəza və Kürütökmə kanallarında da müşahidələr aparılıb. Kiçik Körfəzə axan Viləş çayının deltasında sel vasitəsilə gələn müxtəlif növ ağac və kol bitkilərdən formalaşmış meşə örtüyü, formalaşan flora və fauna növləri kompleks parametrlər üzrə müqayisəli təhlil edilib. Tədqiqat müddətində həmçinin Azərbaycan Respublikasının Qırmızı Kitabının 3-cü nəşrinə daxil edilməsi nəzərdə tulan bitki və heyvan növlərinə aid materiallar da toplanıb. Hirkan Milli Parkında Xanbulan dəryaçasına yaxın ərazilərdə flora və fauna növləri təhlil edilib. Ərazi üçün xarakterik olan endemik və relikt flora və fauna növlərinə təbii və antropogen faktorların təsiri analiz edilib.

# BDU və Ankara Universiteti biotexnologiyanın qida təhlükəsizliyi və tibb sahəsində tətbiqi üzrə birgə fəaliyyət göstərəcək

***Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Türkiyənin Ankara Universitetinin Texnoparkının Kənd təsərrüfatı, heyvandarlıq və qida mərkəzində görülən işlərlə tanış olub.***

Görüşdə Ankara Universitetinin Texnoparkının iş prinsipləri, sənaye müəssisələri ilə universitetlərin əməkdaşlıq modelləri, elmi nailiyyətlərin sənayedə tətbiqi, sənayedə mövcud olan texniki problemlərin həllinə istiqamətlənmiş elmi praktiki tədqiqatların universitetlərdə həyata keçirilməsi ilə bağlı müzakirələr aparılıb.



Qeyd olunub ki, Ankara Universitetinin Texnoparkında sağlamlıq sahəsində tematik strukturlaşmaya dair işlər aparılır. Kənd təsərrüfatı, heyvandarlıq və qida mərkəzi yeni ideya və texnologiyalar istehsal edir. Bu laboratoriyalar tematik sahələrə xas olan konsepsiyanın yoxlanılması mərhələsi - sınaqları üçün platformadır. Laboratoriyalarda həmçinin sertifikatlaşdırma üçün akkreditə olunmuş sınaq və təhlil xidmətləri təqdim olunur.

Kənd təsərrüfatı, heyvandarlıq və qida sektorlarında aparılacaq genom tədqiqatları üçün lazımi infrastrukturu təmin etməsi sayəsində qabaqcıl sahibkarlar tərəfindən seçim ediləcək qurum olan Mərkəz Ankara Universitetində bu sektorlara xas inkubasiya proqramı hazırlayır və həyata keçirir.

Ankara Universiteti və BDU arasında biotexnologiyanın kənd təsərrüfatı, qida təhlükəsizliyi və tibb sahəsində tətbiqi istiqamətində birgə fəaliyyətin təşkil edilməsi barədə ilkin razılıq əldə olunub.

Hazırda Ankara Universitetinin nəzdində olan texnoparklarda fəaliyyət göstərən biotexnologiya şirkətləri ilə əməkdaşlıq modelləri üzərində fikir mübadiləsi aparılıb. BDU-nun akademik heyətinin həmin biotexnologiya şirkətlərində praktiki təlimlərdə iştirakı, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinə biotexnologiya şirkətləri və bu sahədə fəaliyyət göstərən akademik heyətin cəlb edilməsi müzakirə edilib.

# "Nəsir İmanquliyev əsl tələbə adamı idi"

***"Bakı"-"Baku" qəzetlərinin yaradıcısı olmuş, uzun illər bu qəzetlərə rəhbərlik etmiş Nəsir İmanquliyev onu tanıyanların xatirində qayğıkeş, uzaqgörən insan, müdrik alim və bacarıqlı müəllim kimi qalıb. Həmsöhbətimiz, Nəsir müəllimlə Bakı Dövlət Universitetində uzun illər bir kafedrada çalışmış, vaxtilə Jurnalistika fakültəsinin dekanı olmuş Akif Rüstəmovla söhbətimizdə mərhum pedaqoqu xatırladıq.***

***- Akif müəllim, bildiyimiz kimi, Nəsir İmanquliyev bu gün respublikanın ayrı-ayrı kütləvi informasiya vasitələrində çalışanların əksəriyyətinə, o cümlədən, sizə dərs deyib. Onu necə xatırlayırsız?***

- İnsanlar dünyasını dəyişəndən sonra, tədricən unudulur. İnsan da var ki, həmişə hamının qəlbində yaşayır. Belələri xeyirxah əməllərinə, qayğıkeşliyinə, həssaslığına görə başqalarından seçilir. Nəsir müəllim ucaboy, həmişə səliqəli geyimi ilə seçilən, üzündən nur yağan müəllim idi. Birinci kursda tələbələrinə "Jurnalistikaya giriş" fənnindən mühazirə oxuyar, jurnalistikanın sirlərini öyrədərdi. Böyük həyat yolu keçmiş, mətbuatımızın siması olan Nəsir müəllim öz təcrübəsindən danışar, jurnalistikanın cəmiyyətdəki rolunu tələbələrə aşılayardı. İstərdim Azərbaycan mətbuatının digər cəfakeşi, mətbuat tarixinin yorulmaz tədqiqatçısı Şirməmməd Hüseynovun Nəsir müəllim haqqında dediyi bir fikri yada salam. O deyir ki, əgər bu gün universitetin Jurnalistika fakültəsində işgüzar armosfer, tələbkarlıq və düzlük, xeyirxahlıq və səmimiyyət varsa, bu keyfiyyətləri yaradan və miras qoyanlardan biri də məhz Nəsir İmanquliyev olub. Bəli, yaradıcı ömür yolu keçmiş Nəsir müəllim yaddaşımda belə qalıb.

Auditoriyanı ələ almaq hər adama nəsib olmur. Nəsir müəllim oxuduğu mühazirələrlə tələbələri özünə cəlb edə bilirdi. Çünki mühazirələri elmi-nəzəri cəhətdən zəngin idi, həm də onun "Bakı" - "Baku" qəzetlərindəki təcrübəsi mühazirələrin maraqlı olmasına zəmin yaradırdı. Nəsir İmanquliyev əsl tələbə adamı idi. O, tələbələrin yazılarını redaktoru olduğu qəzetdə dərc edər, onlara yüksək qonorar yazardı. Beləliklə də onları mətbuata bağlayardı. Tələbələrlə fərdi məşğul olmağı xoşlayardı. Onları redaksiyaya dəvət edər, tapşırıqlar verər, bir sözlə, tələbələri redaksiyanın "mətbəxi" ilə tanış edərdi.

Bir dəfə məni redaksiyaya dəvət etmişdi. Onda mən fakültəni yenicə bitirib, mərhum Nurəddin Babayevin köməyi ilə kafedrada laborant işləməyə qalmışdım. Qısa söhbətdən sonra dedi ki, səni işə götürmək istəyirəm, necə baxırsan? Düzü, bu xeyirxah təklif məni çaşdırdı, bilmədim nə deyəm. Bir anlıq tərəddüddən sonra eyni kafedrada işləyəcəyimizi dedim. Elə o vaxtdan - 1969-cu ildən taleyimi Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasına bağladım. Hazırda Cahangir Məmmədlinin



rəhbərlik etdiyi həmin kafedranın girişində Nəsir müəllimin barelyefi, otaqda isə portreti asılıb.

Kafedrada işə başlayandan sonra Nəsir müəllimlə əlaqəm daha ardıcıl oldu. İş elə gətirdi ki, onun tədris etdiyi "Jurnalistikaya giriş" fənnindən məşğələləri aparmağı mənə tapşırdılar. Kömək məqsədi ilə məni Nizami küçəsindəki mənzilinə çağırar, lazımı ədəbiyyatla təmin edərdi. Nəsir müəllimgildə çox olmuşam. O mənzildə duz-çörək kəsmişəm. Bu yaxınlıq onu mənə daha yaxşı tanıtdı.

Yeri gəlmişkən, bir hadisəni yada salmaq istərdim. Nəsir müəllim jurnalistikanın funksiya və prinsiplərindən mühazirə oxuyurdu. H.Zərdabidən, C.Məmmədquluzadədən misallar gətirirdi. "Burjua mətbuatı kapitalistin pul kisəsindən asılıdır" - deyəndə, tələbələrdən biri yerdən dilləndi ki, o nə deyən şeydir?. Nəsir müəllim çox təmkinlə suala aydınlıq gətirdi və bildirdi ki, burjua cəmiyyətində mətbuat pullu insanların maliyyə dəstəyi ilə çıxır. Bir neçə ölkədən nümunələrə də müraciət etdi.

Nəsir müəllimin tələbələrə övladı kimi münasibət göstərirdi. Mən dəfələrlə onun şahidi olmuşam. Birinci kursda "Jurnalistikaya giriş" fənnindən imtahan idi. Mən də assent idim. Bir anlığa bayıra çıxmışdım. Xəbər gəldi ki, Nəsir müəllim çağırır. Getdim. Qarşısında arıq bir tələbə oturmuşdu. Dedi ki, bu tələbəyə "əla" qiymət yazmaq istəyirəm, imkan vermir, deyir "yaxşı" yaz. Mən tələbənin qiymət kitabçasına baxdım, əvvəlki qiymətləri də "əla" idi. Soruşdum niyə razı deyilsən, Tələbə "mən "əla"ya danışmadım, "yaxşı"mı yazın gedim" dedi. Onu bayıra çıxardım. Nəsir müəllim sözünün üstündə durdu, qiymət kitabçasına "əla" yazdı. Və dedi ki, bu tələbənin analitik təfəkkürü var, cavabları məntiqlidir, hadisələrə qiymət verməyi bacarır. Yadda saxla, gələcəkdə pozulmasa yaxşı jurnalist ola bilər. Nəsir müəllim yanılmamışdı, indi həmin o cılız, arıq tələbə jurnalistika sahəsində tanınan peşə sahibidir.

***- Kim idi o tələbə, adını bilmək olarmı?***

- Adını çəksəm, reklam olar. İstedadlar onun gözündən yayınmazdı. Dərs dediyi, ümid verdiyi tələbələri "Bakı" qəzetinə işə cəlb edər, onların uğurlarına sevinərdi.

Vaxtilə "Bakı" qəzetinə işə götürdüyü Famil Mehdi sonralar Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri olur. Yaxşı yadımdadır, kafedranın işplanına əsasən Nəsir müəllimin açıq dərsi olmalıydı. Onda Famil müəllim onun dərsində oturmağı özünə rəva bilmədi. Dedi ki, hamıya dərs deyən, qəzetin nəzəri və praktik məsələlərini bizə öyrədən müəllimin açıq dərsində oturmuq ayıbdır.

Bu gün Nəsir müəllimin dərs dediyi tələbələr kütləvi informasiya vasitələrində uğurla çalışırlar. Hamı onu həlim bir insan kimi tanıyır. Yeri gələndə tərs üzü də vardı. Heç yadımdan çıxmaz. Ona imtahanda tələbə tapşıranda əsəbləşər "nəyə cavab versə, o qiyməti də alacaq" - deyərdi. Xoş niyyətli bu insan tələbəni incitməzdi.

***- Akif müəllim, Nəsir müəllimin yüz illiyi ilə bağlı "Kaspi" qəzetində dərc olunmuş yazıda Sizin haqqınızda da fikirlər yer alıb. Görünür Nəsir müəllimlə yaxın olmusuz.***

- Aramızdakı yaş fərqinə baxmayaraq çox yaxın olmuşuq. Dekan olduğumdan həmişə səhər tezdən dərslərin başlanmasına 10-15 dəqiqə qalmış fakültəyə gəlirdim. Nəsir müəllim də birinci saata gələrdi, heç vaxt gecikməzdi. Oturub söhbətləşərdik. Mövzular müxtəlif idi. Ölkədəki ictimai-siyasi vəziyyət, mətbuatın durumu, qəzetlərdə etik normaların gözlənməməsi və s. Görünür bu söhbətlər bizi daha da yaxınlaşdırmışdı. Bir gün gördüm fakültəyə məndən də tez gəlib. Özü də çox kefsiz idi. Onu heç vaxt belə görməmişdim. Qızı Aida xanımın xəstəliyi onu sarsıtmışdı. Kövrəldi, gözləri doldu. Ürək-dirək verdim. İlk dəfə idi ki, dərsi mənə tapşırıb getdi. Axşam zəng vurub qızının vəziyyəti ilə maraqlandım. Aida xanımın itkisi ilə heç cür barışa bilmirdi, elə bu da ola bilsin ustad müəllimin dünyasını dəyişməsinə səbəb oldu.

Nəsir müəllim bir arada xəstələnmişdi, xeyli müddət dərsə gələsi olmadı. Razı olmadım xəstəlik kağızı gətirsin, dərsləri özüm deyəsi oldum, maaşını da vaxtlıvaxtında alıb bir tələbədən göndərirdim. Vaxt tapıb ara-bir özüm də gedib baş çəkirdim. Sağalıb ayağı qalxandan sonra mənə dedi ki, sən məni lap xəcalətli elədin.

Bu mənim ustad müəllimə böyük hörmətim, sayğım idi. Ayrı cür də ola bilməzdi. İtalyan filosofu Paulo Ruffini əsl müəllim haqqında deyir ki, müəllim bir şama bənzər, özünü əridərək başqalarına işıq verər. Nəsir müəllim də ömrünün sonunadək öz yetirmələrinə işıq bəx elədi.

***- Bir daha "Kaspi" qəzetindəki yazıya qayıtmaq istəyirəm. Universitetin o vaxtkı rəhbərliyi iki nəfərin - Nəsir müəllimin və Seyfulla müəllimin işdən azad olması barədə təqdimat yazmağı sizdən tələb edib. Bu məsələyə bir qədər aydınlıq gətirin...***

- Mən indiyədək bu barədə mətbuatda çıxış etməmişəm. 2009-cu ilin dekabrında mənim 70 yaşım olanda "Azərbaycan" qəzetində Mahmud müəllimin yazısı gedib. Həmin yazıda bu hadisəyə ətraflı yer verilib. Yenidən o günləri xatırlamağa ehtiyac görmürəm.

***- Amma hər halda özünüzdən eşitmək yaxşı olardı...***

- Danış deyirsən danışım. Keçən əsrin 90-cı ilin əvvəlləri idi. Fakültəyə yeni dekan seçilmişdim. Ölkədə vəziyyət çox gərgin idi. Demək olar ki, hər gün olmasa da, həftədə 3-4 dəfə rektorluğun iclası keçirilirdi. İclasın birində o vaxtkı rektor məni ayağa qaldırıb ağsaqqal müəllimlərimiz - Nəsir İmanquliyevlə, Seyfulla Əliyevin işdən azad olunması barədə təqdimat yazmağı tapşırdı. Və dedi növbəti iclasa təqdimatla gəlim. Rektor onların hər ikisinin yaşlı olmasını əsas gətirirdi. Düzü, onun gözlənilməz təklifi məni çıxılmaz vəziyyətdə qoydu. Bircə, çəkinə-çəkinə onu dedim ki, universitetdə onlardan da yaşlıları var. İclas qurtardı, kor-peşiman fakültəyə deyil, evə getdim. Səhərə kimi yata bilmədim. Növbəti iclas başlayan kimi rektorun işarəsi ilə ayağa qalxdım. Təqdimatı soruşdu. Dedim Nəsir müəllim də, Seyfulla müəllim də mənim müəllimlərimdir. Belə bir təqdimat yazmaq mənimcün ağırdır. Əsəbi halda "Get yaz, gətir" deyib əli ilə qapını göstərdi. Öz otağıma gəldim. Bir Allah bilir nələr çəkirdim. Rektorun adına ərizə yazdım, yazdım ki, xahiş edirəm məni tutduğum dekan vəzifəsindən azad edəsiz. Əlimdə ərizə yenidən geri qayıtdım. İçəri daxil olub onu rektora təqdim etdim və dedim ki, dekan vəzifəsindən getməyim barədə ərizədir. Ərizəni almadı, dedi iclasdan sonra gələrsən yanıma. Getmədim. Axşam həm Nəsir müəllim, həm də Seyfulla müəllim mənə zəng vurdu. Görünür kimlərsə onlara məlumat vermişdi. Bircə onu dedim ki, narahat olmayın.

Səhəri gün rektor məni çağırdı. Kabinetində əvvəl çox mehriban söhbətimiz oldu. Sonra mənim inadkarlığımı görüb soruşdu: "Niyə yazmırsan, nədən çəkinirsən, belə məsləhətdir". Dilim dinc durmadı, soruşdum ki, məsləhəti kim verib. Sanki rektoru od götürdü. Elə bil əvvəlki adam deyildi: "Bircə o qalıb ki, rektor dekana hesabat versin, get, sənə bir həftə vaxt verirəm, yaxşı-yaxşı fikirləş" - deyib ayağa qalxdı, qapıya tərəf gəldi. Bu o demək idi ki, otağı tərk elə. Beləcə bir neçə dəfə məni çağırdı və istədiyi təqdimatı ala bilmədi. Aramızda sərinlik yarandı, çalışırdım gözünə az görünəm.

Hadisənin gedişindən xəbərdar olan Nəsir müəllim, indi olmasın, məni qucaqlayıb dedi ki, özün yaxşı bilirsən, bütün bunlar mənim başımdadır, çalış Seyfulla müəllim qalsın, mən getsəm də olar, onsuz da iki qəzetin redaktoruyam, sən yeni seçilmisən, qal işlə.

Təvazökarlıqdan bir qədər uzaq da olsa, deyim ki, mən sadəcə, öz vicdanlıq borcumu yerinə yetirdim. Hər ikisinin getməsinə imkan vermədim. Mənə elə gəlir ki, müəllimə hörmət qoyan hər bir kəs belə edərdi. O günləri xatırlayanda deyirəm nə yaxşı bəzi insanların sözünə qulaq asmadım. Yoxsa indi müəllim həmkarlarımın, məni tanıyanların üzünə necə baxardım?

***- Akif müəllim, jurnalist tələbələrin peşəyə olan marağını bilmək istərdik. Fakültənin müəllimi kimi qəzetlərimizin bugünü ilə bağlı nə düşünürsünüz?***

- İndiki tələbələrin az bir qismi peşəyə maraq göstərir. Onun kökünü qəbul imtahanlarında axtarmaq lazımdır. Çünki qəbul olunanların əksəriyyəti digər ixtisasları seçib testin sayəsində bizim fakültəyə düşüblər. Əvvəllər 1976-1991-ci illərdə fakültəyə qəbulda qabiliyyət imtahanı keçirilirdi. O da müsbət nəticəsini verirdi. Onun bərpası üçün dəfələrlə müraciət etməyimizə baxmayaraq xeyri olmayıb. Bəziləri elə bilir ki, fakültə qəbul imtahanlarına müdaxilə etmək fikrindədir. Fakültə kollektivinin iştirakı olmadan qabiliyyət imtahanlarını kim istəyir keçirsin. İstər kütləvi informasiya vasitələrinin əməkdaşları, istərsə də Mətbuat Şurasının üzvləri. Bizim üçün fərqi yoxdur, təki peşəyə marağı olanlar gəlsin.

Bu ilin noyabr ayında Azərbaycan Prezidenti İlham Əliyevə "Jurnalistlərin dostu" mükafatının təqdimat mərasimində çıxış edən jurnalist, millət vəkili Aqil Abbas bu məsələni qaldırdı. Ölkə başçısı onun fikrini müsbət qarşıladı və bildirdi ki, gələcək jurnalistlərin peşəkarlığı, bacarığı təkcə testlə ölçülə bilməz.

Sualın ikinci hissəsinə gəldikdə, arzu edərdim ki, qəzetlər yeni ildə maliyyə çətinliklərindən xilas olsun, reklam bazarı, satış məsələsi qaydaya düşsün. Yeri gəlmişkən, vaxtilə dediyim bir arzunu da xatırlatmaq istərdim. Yaxşı olardı ki, Jurnalistika fakültəsində Nəsir müəllimin adına təqaüd təsis edilsin, auditoriyalardan birinə onun adı verilsin.

***Vəfa Məmmədli,***
*"525-ci qəzet"*
*19.12.2021-ci il*

# BDU Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının təhsil və karyera sərgisində



***Avqustun 1-də Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının (ASAP) təşkilatçılığı ilə təhsil və karyera sərgisi keçirilib. Bakı Dövlət Universitetinin də təmsil olunduğu sərgidə ölkəmizin bir sıra aparıcı ali təhsil müəssisələri, ictimai təşkilatlar, müxtəlif şirkətlər təmsil olunublar.*** Sərginin keçirilməsində məqsəd savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin məşğulluq imkanlarını artırmaq, vətəndaşların dövlət və özəl qurumlarda işlə təmin olunmalarına dəstək göstərmək, habelə müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat vermələri üçün şərait yaratmaqdır.

Sərgidə iştirakçılara BDU-da təhsil və karyera imkanları, Universitetin elmi-tədqiqat yönümlü və sosial layihələri, xarici ölkə universitetləri ilə ikili diplom proqramları haqqında ətraflı məlumat verilib. BDU-nun fəaliyyətini əks etdirən kitab və qəzet nəşrləri, elmi-tədqiqat jurnalları, broşur və bukletlər ziyarətçilərdə maraq doğurub.

# Azərbaycanda ilk dəfə urdu dilini öyrənənlər üçün rəngli və şəkilli formatda dərslik nəşr olunub

***Avqustun 1-də Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin urdu dili müəllimi Eldost İbrahimovun müəllifi olduğu "Urdu dili A1" dərs kitabı çapdan çıxıb.***

Şərqşünaslıq fakültəsinin Pakistan üzrə regionşünaslıq ixtisasında təhsil alan tələbələr üçün nəzərdə tutulmuş kitab Azərbaycan dilində rəngli və şəkilli formatda nəşr olunmuş ilk urdu dili dərsliyidir. Azərbaycanla Pakistan arasındakı diplomatik əlaqələrin 30 illiyi və BDU-nun Urdu dili şöbəsinin fəaliyyətə başlamasının 20 illiyinə həsr olunmuş kitabdan Şərqşünaslıq fakültəsinin tələbələri ilə yanaşı, urdu dilini sərbəst şəkildə və ya Azərbaycan dili ilə müqayisə edərək öyrənmək istəyənlər də istifadə edə bilər.




14 bölmədən ibarət olan dərsliyin nəşr olunmasında əsas məqsəd azərbaycanlı oxuculara urdu dilində yazmağı, oxumağı, anlamağı və danışmağı öyrətmək, eyni zamanda onlara Pakistan xalqının mədəniyyəti, tarixi, məişəti barədə qısa mətnlər daxilində məlumat çatdırmaqdır.

# BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində iki külək turbini hazırlanır

***Avqustun 3-də Bakı Dövlət Universitetində yeni yaradılan Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində (TETYM) tələbələr və gənc mütəxəssislər tərəfindən vertikal və horizontal tipli iki müxtəlif külək turbininin hazırlanmasına başlanılıb. Ümumi gücü 1200 Watt olacaq HAWTs və VAWTs tipli bu turbinlərin bütün hissələri tələbələr tərəfindən hazırlanacaq. Layihənin sentyabr ayının sonuna kimi yekunlaşdırılması nəzərdə tutulur.***

Mərkəzin həyatında yerləşən günəş panelləri və hazırlanacaq turbinlərindən ibarət alternativ enerji mənbəyi sisteminin ümumi gücü 2000 Watt təşkil edəcək ki, bu da TETYM-in inzibati binasını tam olaraq elektrik enerjisi ilə təmin etməyə imkan verəcək.

Bundan əlavə, TETYM-də çalışan tələbə və gənc tədqiqatçılar Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən elan olunmuş "İdeyanı Reallaşdır - 2022" adlı qrant müsabiqəsinə müxtəlif kateqoriyalar üzrə 4 layihə təqdim ediblər. Mərkəzin üzvləri SOCAR və Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) birgə təşkilatçılığı ilə 2022-ci il 9-11 sentyabr tarixlərində Bakı Ali Neft Məktəbində keçiriləcək "Enerji və Dördüncü Sənaye İnqilabı" Hakaton yarışmasında 2 layihə ilə yarışacaq. Layihələr Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında bərpa olunan enerji resurslarından istifadə mövzusuna həsr olunub.

Qeyd edək ki, BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin inzibati binası bu ilin iyun ayında istifadəyə verilib. Mərkəzdə tələbələr elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparır, tədris prosesində əldə etdikləri bilikləri daha da gücləndirirlər. Mərkəzdə BDU ilə yanaşı, ölkənin digər ali təhsil müəssisələrinin tələbələri də müxtəlif sahələr üzrə təhsil-elm-innovasiya istiqamətində yerinə yetirilən layihə və proqramlarda iştirak edirlər.

Mərkəzdə elektronika, materialşünaslıq, kimya mühəndisliyi, proqramlaşdırma, süni intellekt, mexanika, mexatronika, robototexnika mühəndisliyi, ekologiya mühəndisliyi, astrofizika və kosmik elmlər istiqamətləri üzrə dərnəklər fəaliyyət göstərir.

# BDU-da könüllülük hərəkatı genişlənir

***Bakı Dövlət Universitetində könüllülük hərəkatı ildən-ilə genişlənir. 2019-cu ildən fəaliyyət göstərən "BDU könüllüləri" qrupu hazırda öz ətrafında 700-dən çox könüllü tələbəni birləşdirir.***

Qrup 2020-ci ildən başlayaraq bir sıra uğurlu layihələr həyata keçirib, BDU-da könüllülük hərəkatının genişlənməsində, tələbə təşkilatları ilə birgə sosial və mədəni-kütləvi tədbirlərin təşkilində fəal iştirak edib. Pandemiya dövründə əməkdaş və tələbələr arasında "COVID-19" xəstəliyi ilə mübarizə istiqamətində maarifləndirmə işində, xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarətin həyata keçirilməsində, eləcə də tələbələrin onlayn dərslərə fəal qoşulmasının təşviqində xüsusi fəallıq göstərib.

Hazırda könüllü tələbələr BDU-nun müxtəlif struktur bölmələrində könüllü kimi fəaliyyət göstərməklə Universitetin ictimai həyatında fəal iştirak edirlər. Bu ilin ilk yarısında "BDU könüllüləri" qrupunun təşkilatçılığı ilə müxtəlif səpkili 47 tədbir keçirilib.

Universitetin könüllüləri həmçinin ölkəmizdə həyata keçirilən iri-miqyaslı beynəlxalq və respublika əhəmiyyətli tədbirlərdə, sosial layihələrdə, humanitar aksiyalarda fəal iştirak etməklə respublikamızda uğurla həyata keçirilən gənclər siyasəti və könüllülük hərəkatına öz töhfələrini verirlər.

"BDU könüllüləri" könüllülük sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə, ölkəmizdə fəaliyyət göstərən digər könüllülər təşkilatları ilə əlaqələrin qurulmasına xüsusi diqqət yetirir. Eyni zamanda gənclər arasında könüllülüyün təşviqi və təbliği, könüllülük sahəsində qarşılıqlı faydalı əməkdaşlığın qurulması ilə bağlı mövcud beynəlxalq təcrübənin öyrənilməsinə səy göstərir.

# BDU-nun Hirş indeksi 52-yə çatıb

***Bakı Dövlət Universitetinin inkişaf strategiyasının əsas məsələlərindən biri də elmi-tədqiqatların prioritetlərini dünya elminin inkişaf istiqamətlərinə və ölkənin mühüm ictimai-mədəni məsələlərinin həllinə uyğun müəyyənləşdirməkdir.*** BDU Avropa və dünya tendensiyalarına uyğun qabaqcıl texnologiya və nailiyyətlər səviyyəsində peşəkar sahələrin funksiyalaşdırılması və inkişafını təmin edə bilən mütəxəssislər, elmi və elmi-pedaqoji, mühəndis-texniki kadrlar hazırlayan, sənaye müəssisələri ilə olan mövcud əlaqələri inkişaf etdirməklə elmi nəticələri kommersiyalaşdıran struktura və bazaya malikdir.

"Clarivate Analytics" Beynəlxalq İnformasiya Agentliyinin rəsmi məlumatına əsasən, BDU-nun Hirş indeksi artaraq 52 olub (Hirş indeksi alimlərin, elmi təşkilatın fəaliyyətinin elmi əsərləri və həmin əsərlərə istinada görə kəmiyyət göstəricisidir). Hər bir əsərə istinadların orta sayı isə 6.06-ya qədər yüksəlib. Onu da qeyd edək ki, 2018-ci ilin sonunda BDU-nun Hirş indeksi 35-ə bərabər olub.

Agentliyin rəsmi məlumatına əsasən, BDU-nun əməkdaşları, doktorant və tələbələri tərəfindən "Web of Science" bazasına daxil olan dərgilərdə artıq 3598 elmi əsər nəşr edilib. Bu əsərlərə 22000-nə yaxın istinad edilib. 2022-ci ilin ilk 8 ayı ərzində "Web of Science" bazasına daxil olan dərgilərdə BDU tərəfindən 146 əsər nəşr edilib və nəşr edilən əsərlərə 2800-ə yaxın istinad edilib.

Onu da qeyd edək ki, bu göstəricilərlə BDU Azərbaycan universitetləri arasında yenə liderdir.

# BDU-nun tələbəsi V İslam Həmrəyliyi Oyunlarında gümüş medal qazanıb

***Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin II kurs tələbəsi, Azərbaycan Kikboksinq Federasiyasının I vitse-prezidenti Ramal Aslanov V İslam Həmrəyliyi Oyunlarında kikboksinqin "lou kik" növündə gümüş medal qazanıb.***

Kikboksinqin "lou kik" növündə 75 kq çəki dərəcəsində çıxış edən Ramal Aslanov finalda Türkiyə idmançısı Ünal Alkayışla mübarizə aparıb. Qeyd edək ki, Ramal Aslanov 2012 və 2019-cu illərdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən cari ilin kikboksinq üzrə ilin ən yaxşı idmançısı seçilib. Azərbaycanda qeyri-olimpiya idman növlərinin inkişafında xüsusi xidmətlərinə görə Ramal Aslanov 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Fəxri Fərmanla təltif edilib. 2015-ci ildə "İdman ustası", 2017-ci ildə isə "Əməkdar idman ustası" fəxri adlarına layiq görülüb.

# BDU-nun magistr məzunları öz təəssüatlarını bölüşür: "Təhsil aldığımız müddətdə təhsilin əhəmiyyətini daha yaxşı dərk etdik"

Bu il Bakı Dövlət Universitetindən 5000-dək tələbə və magistrant məzun oldu. Yüksək göstəricilərlə BDU məzunu adını qazanan magistrlərin bir neçəsinin təəssüratlarını öyrəndik.



Jalə Xəlilova | Suqra Orucova | Jalə Səmədova | Adil Əliyev | Kənan Novruzov

***Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin magistr məzunu Jalə Xəlilova:***

“BDU-nun 2022-ci il məzunuyam. 2016-cı ildə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin “Kompüter elmləri” ixtisası üzrə təhsil almışam. 2020-ci ildə bakalavr təhsilimi bitirmişəm. Universitetdə dərslərin yüksək səviyyədə keçirilməsi, müəllimlərin tələbələrdə dərsə böyük maraq yaratması, təsadüfi deyil ki, magistr təhsilimi də məhz BDU-da almağa məni sövq etdi. 2020-ci ildə Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin riyaziyyat ixtisasının “Diskret sistemlər” ixtisaslaşmasına daxil oldum. Universitet sayəsində çox dəyərli və öz sahələrində peşəkar müəllimlər tanıdım. Müəllimlərimizin böyük həvəslə tədris etdiyi fənləri çox böyük həvəslə öyrəndim. Dönüb arxada qoyduğum altı ilə baxdığım zaman universitet həyatımın hər anını doya-doya yaşadığımın fərqinə varıram. BDU-ya qəbul olmaq mənim uşaqlıq arzum idi. Nə xoş ki, bu arzu indi bir unudulmaz xatirəyə çevrilib. Azərbaycanın ilk ali təhsil ocağının məzunu olmaq çox özəl və möhtəşəm bir hissdir, yaxşı ki, mən də BDU-nun məzunuyam.

Hər bir gəncin həm tərbiyə, həm təlim-tədris cəhətdən formalaşmasında və cəmiyyətdə nümunəvi şəxsiyyət kimi yetişməsində universitetin rolu böyükdür. Ölkənin ən nüfuzlu Universiteti olan BDU-nu fərqlənmə diplomu ilə bitirmək həqiqətən də çox qürurvericidir. Universitetdə təhsil aldığımız müddətdə çalışmağın önəmini daha yaxşı dərk etdik, oxuduq, öyrəndik, imtahanları uğurla başa vurduqda sevincdən yerə-göyə sığmadıq. Və ən əsası Ümummilli Liderimiz Heydər Əliyevin təhsil aldığı Universitetdə təhsil almaq mənim üçün böyük bir şərəfdir. BDU-da 6 illik təhsil həyatımda öyrəndiklərimin gələcəkdə mənə yeni uğurlar və nailiyyətlər qazandıracağına əminəm.”

***Tarix fakültəsinin magistr məzunu Suqra Orucova:***

“Azərbaycanın ən qocaman ali təhsil ocağı BDU-da tələbə olduğum üçün qürur duyuram. Mən həm bakalavr, həm də magistr təhsilimi bu universitetdə almışam. Təhsil aldığım müddətdə BDU mənə bir çox uğur qazandırdı. İlk öncə mühüm biliklərə yiyələnmiş və Azərbaycanın bir çox görkəmli alimlərindən dərs almışam. Həqiqətən, bu illər ərzində sosial çevrəm çox dəyişdi, yeni dostlar qazandım, bu günə qədər də əlaqələrimiz davam edir. Bakı Dövlət Universitetində konfranslar keçirilən zaman könüllü olduğum dövrdə bir çox xarici alimlərlə tanış oldum və bu tanışlıq məndə təhsilə yeni baxışların yaranmasına səbəb oldu, hətta, deyə bilərəm ki, yeni fikir formalaşdırdı. BDU mənim dünyagörüşümün formalaşmağında böyük rol oynadı. Başda universitet rəhbərliyi olmaqla bütün müəllimlərimə və tələbə yoldaşlarıma göstərdikləri dəstəyə görə təşəkkür edirəm.”

***Şərşünaslıq fakültəsinin magistr məzunu Jalə Səmədova:***

“Regionda Şərq dillərini fundamental şəkildə öyrədən BDU-nun Şərqşünaslıq fakültəsinin məzunu olmaq çox qürurvericidir. Bakalavr pilləsini bitirdikdən sonra elə həmin il magistr təhsilimi davam etdirdim. Təhsilim zamanı dərslərlə yanaşı ictimai, sosial sahədə aktivlik göstərərək diplomatiya sahəsində nəzəri və praktiki biliklərə yiyələndim, səfirlərlə görüş, xarici vətəndaşlarla ünsiyyətin qurulması, tədbir və konfrans zamanı çıxışlar məndə yeniliklərə açıq olmağımı, emosional intelektimi artırdı. Düşünürəm ki, yeni dostlar, yeni sosial sfera, təcrübələr, xoş xatirələr ömrümüzün sonuna qədər bizimlə olacaq və gələcək karyeramızın formalaşmasında böyük rol oynayacaq. Əlbəttə bu uğurların əldə edilməsində doğma universitetimin rolu əvəzedilməzdir. Əziz BDU ailəsi, hər birinizə ayrı-ayrılıqda öz minnətdarlığımı bildirirəm.”

***Hüquq fakültəsinin magistr məzunu Adil Əliyev:***

“Ölkəmizin ən qədim və ən böyük ali təhsil ocağı olan BDU-nun məzunu olmaqdan böyük fəxarət hissi duyuram. BDU-da təhsil aldığım illər həyatımın ən unudulmaz, maraqlı və macəralı illəridir. Doğma universitetim mənə çoxsaylı dostlar, xoş xatirələr, hüquq sahəsində professional bilik və bacarıqlar qazandırdı. Universitetdə tələbəlik illəri elə də asan olmasa da, amma sözün əsl mənasında dəyərlidir. Hər bir insan bu illərin mənasını zaman keçdikcə daha yaxşı anlayır. Qeyd edim ki, keçmiş 1-ci dərəcəli şahmatçı kimi Hüquq fakültəsi mənim strateji və analitik düşünmə qabiliyyətimi daha da inkişaf etdirdi. Universitetdə təhsil aldığım dövrdə geniş könüllülük fəaliyyətimin sonradan mənə çox faydası olacaq.

Sevindirici məqamdır ki, mən Hüquq fakültəsinin 2016-cı ildə bakalavr, 2022-ci ildə isə magistr pilləsini fərqlənmə diplomları ilə bitirmişəm. Bu böyük uğurun əldə edilməsində başda BDU-nun Biologiya fakültəsinin 1996-cı il məzunu olmuş əziz anama, universitet rəhbərliyinə və müəllimlərimə, mənim hüquqşünas kimi formalaşmağımda əməyi keçmiş bütün insanlara dərin minnətdarlığımı bildirirəm.”

***Jurnalistika fakültəsinin magistr məzunu Kənan Novruzov:***

“BDU, altı il orada olduğum, ikinci ailəmə çevrilən Jurnalistika fakültəsi haqqında saatlarla danışa bilərəm. Bu təhsil müəssisəsinin, qazandığım dostların, müəllimlərin, yaşadığım təcrübələrin həyatımda xüsusi yeri var. Bakalavr təhsil pilləsindən məzun olanda universitetimin 100, fakültəmin 50 yaşı var idi. Həmin vaxt bu yubileylə bağlı “Elə bir ailədənəm ki...” adlı kitab hazırladım. Kitabda BDU-ya, fakültəmə ikinci dəfə qovuşacağım barədə söz vermişdim. Şükür, vədimi yerinə yetirə bildim və doğma məkanda magistratura təhsili də ala bildim. Hələ də son olduğunu düşünmürəm. Çünki bunu istəmirəm. Ümid edirəm, bu dəfə əməkdaş kimi BDU-ya, fakültəmə qayıda bilərəm. Müəllimlərimə minnətdaram. Bütün müəllimlərimin üzərimdə xidmətləri var. Həmişə etimadlarını doğrultmağa çalışacağam. Sizə bir də qovuşmaq ümidilə, əziz BDU, doğma Jurnalistika fakültəsi!”

***Hazırladı: Nərminə Əsədova***
*İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi*

# Əcnəbi tələbələrin qəbulu ilə bağlı görüş

***Avqustun 29-da Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşları ilə Bakı Dövlət Universitetinin müvafiq struktur nümayəndələri arasında görüş keçirilib.***

Görüşdə əcnəbilər üçün Azərbaycan təhsilinin cəlbediciliyinin artırılması ilə yanaşı, BDU-da təhsil alan əcnəbilərin təhsilinin təşkili məsələləri də müzakirə olunub.



Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov təhsilin beynəlmiləlləşməsi və BDU-da əcnəbi təhsilalanların sayının artırılması istiqamətində görülən işlərdən bəhs edib.

BDU-nun Tədrisin təşkili və idarə olunması Mərkəzinin direktoru Elçin Məmmədov əcnəbi tələbələrin Universitetə qəbulunun mərkəzləşdirilmiş sistem üzərindən aparılması ilə bağlı məlumat verib.

Görüşdə həmçinin Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini Pərvin Məşədi-Zadə, Xaricdə təhsil və əcnəbi tələbələrlə iş sektorunun müdiri Müjdat Həsənov və digərləri çıxış ediblər. Çıxışlarda əcnəbi tələbələrin təhsil alması, onların say və keyfiyyət göstəriciləri, əcnəbi məzunların fəaliyyət istiqamətləri və qazandıqları uğurlar, Bakı Dövlət Universitetinin beynəlxalq rəqabətliliyinin artırılmasında, ölkədaxili və xarici reytinqinin yüksəlməsində əcnəbi tələbələrin rolu, Azərbaycan təhsilinin ixracyönümlülüyünün göstəriciləri müzakirə olunub.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Allahverdi Məmmədli
Xatirə Hüseynova
Samir Mirzəyev

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 31.08 .2022
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.
**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08